

Milli azadlıqdan şirin nemət yoxdur!

# 9-cu görüş: 12,7 kilometr sərhəd xətti müəyyən edilib



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
25 may 2024-cü il, şənbə
№ 093 (6679)
Qiymәti 60 qəpik

# Cənab Ali Baş Komandan: Əmrinizə uyğun olaraq



## Bağanıs Ayrımın, Aşağı Əskiparanın, Xeyrımlının və Qızılhacılı kəndlərinin ərazisində Azərbaycan Bayrağı dalğalanmaqdadır.

Bax səh. 2

## Azərbaycan-Tacikistan əlaqələri qarşılıqlı etimad və hörmətə əsaslanır

Bax səh. 3

## 2024-cü ilin büdcəsinin gəlir və xərcləri artırılır

"2024-cü ilin dövlət büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisə daxil olub. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, layihə gələn həftə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılacaq. Layihədə büdcənin həm gəlir, həm də xərclərinin artırılması nəzərdə tutulur. "Büdcə Sistemi" haqqında Qanuna əsasən, may ayının 15-dən tez və oktyabr ayının 15-dən gec olmayaraq cari ilin dövlət büdcəsinə yenidən baxılması barədə Milli Məclis qarşısında məsələ qaldırılır. Bu isə o deməkdir iyun ayında büdcəyə dəyişkiliklər layihəsi parlamentdə müzakirə olunaduqdan sonra qəbul ediləcək.

Büdcə layihəsində dürüstləşmələrin aparılması son 5-6 ilin büdcə praktikasında daha çox təsadüf oluna iqtisadi hadisə kimi xarakterizə oluna bilər və bunun da əsas səbəbi ölkənin büdcə-fiskal siyasətinin qanunauyğunluqlarından biri kimi ötən dövrünün cari sosial-iqtisadi inkişafla bağlı vəziyyətin və ilin sonuna gözlənilən göstəricilərin nəzərə alınmasıdır.

Bəs, Azərbaycanda cari sosial-iqtisadi inkişafın vəziyyəti buna imkan verirmi?..

Bax səh. 4



Bax səh. 4

## "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar"

## Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri Laçın şəhərində səfərdə olub

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin - səfirlərin, hərbi attaşelərin və beynəlxalq təşkilatların təmsilçilərinin mayın 24-də Laçın şəhərinə səfər ediblər. Diplomatik korpusun nümayəndələri Laçın İqlim Fəaliyyəti Dialoqu çərçivəsində COP29-la əlaqədar təqdimat mərasimində iştirak ediblər. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev və digər rəsmi şəxslər çıxış ediblər.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev çıxışı zamanı bildirib ki, bizim komandamız artıq bir neçə...

Bax səh. 2

## Lui Bonu regionda səfərdədir

Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması, o cümlədən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması məsələsi beynəlxalq birliyin diqqət mərkəzindədir. Xüsusilə, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi bölgənin strateji gündəliyinin və siyasi gündəminin aktual mövzusudur. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması, qarşıdurma və təhdidlərin istisna olunması üçün sülh müqaviləsinin imzalanması vacibdir.

44 günlük Vətən müharibəsində parlaq qələbə qazanan Azərbaycan  Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratmış oldu. Müharibədə Ermənistanı ağır məğlubiyyətə uğratmasına baxmayaraq, Azərbaycan dövləti bölgənin...

Bax səh. 6

## Azərbaycan NATO əməkdaşlığı uğurla davam edir

Azərbaycan hər zaman sülh və beynəlxalq təhlükəsizlik məsələlərində birmənalı mövqe nümayiş etdirib. Ölkəmiz bütün məsələlərin beynəlxalq hüquq müstəvisində tənzimlənməsinin tərəfdarı kimi çıxış edir. 30 ilə yaxın işğaldan əziyyət çəkən ölkə kimi Azərbaycan terrora qarşı qlobal mübarizənin önündə yer alır. Eyni zamanda, Cənubi Qafqazın aparıcı dövləti sayılan Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə ilə də bölgədə sabitliyin və təhlükəsizliyin təmininə mühüm töhfələr verib. Bu mənada, ölkəmiz nəinki yerləşdiyi regionda, daha böyük coğrafiyada sabitləşdirici amil kimi çıxış etməkdədir...

Bax səh. 5

## COP29-un ən vacib mirası

Qlobal həmrəyliyə davamlı töhfələr verən Azərbaycan cari ilin noyabrında daha bir mühüm beynəlxalq tədbirə - COP29-a ev sahibliyi edəcək. Tədbirə beynəlxalq səviyyədə böyük maraq var, ölkəmizə on minlərlə qonağın gələcəyi gözlənilir. Azərbaycan belə bir genişmiqyaslı qlobal konfransa ev sahibliyi hüququnun verilməsini həm beynəılxalq birliyin etimadı, həm də böyük məsuliyyət kimi qəbul edərək ciddi hazırlıq tədbirləri görür. Prezident İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına verdiyi müsahibəsində COP29-un gündəliyinə xüsusi diqqət çəkib. Dərin təhlillər əsasında hazırlanan bu gündəlik dünyada yaşanan iqlim...

Bax səh. 3

## Azərbaycan ən az xarici borca malikdir

2024-cü il 1 aprel tarixinə Azərbaycanın xarici dövlət borcu 5,5 milyard dollar ekvivalentinə bərabər olub. Hazırda 5 milyard dollar həcmində borc portfeli ÜDM-in 10 faizdən də aşağıdır. Ona görə də Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələr sırasında yer alır. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 10 faizdən də aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini  pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir. Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və...

Bax səh. 6

## Makron Yeni Kaledoniyaya niyə gedib?



Bax səh. 6

# Sülh prosesində yeni mərhələ

*MÜBARİZ*

Azərbaycanla Ermənistan arasında tənzimləmə və sülhyaratma prosesində müsbət meyllər müşahidə edilməkdədir. Məlumdur ki, 44 günlük müharibə başa çatdıqdan sonra sülh gündəliyi qalib Azərbaycanın diqqət çəkdiyi əsas mə-



sələlər sırasında yer alıb. Müharibədən sonra məhz ölkəmiz ilk olaraq qalib statusuna rəğmən, heç bir ilkin şərt irəli sürmədən sülh təşəbbüsü ilə çıxış etdi. Azərbaycanın beynəxalq prinsipləri əsas götürülməklə hazırladığı və qarşı tərəfə təqdim etdiyi beş bənddən ibarət paket bir növ sülhə gedən yol xəritəsidir. Təəssüf ki, məğlub Ermənistan bir müddət havadarlarının təhriklərinə, qisasçılığa, revanşizmə çağırışlarına aldanaraq müxtəlif manipulyasiyalar işlətməklə prosesləri yubatdı. İndiki mərhələdə isə yenə də Azərbaycanın təkidli səyləri ilə ikitərəfli dialoqa üstünlük verilir və ortada bunun real nəticələri də var.

**4 kəndin Azərbaycana qaytarılması**

Son vaxtlarda Ermənistan tərəfindən də sülh prosesi ilə bağlı müsbət siqnallar gəlir. Bu ölkənin anklav olmayan dörd kəndi Azərbaycana qaytarmağa razılaşması bunun əyani təsdiqidir. Kəndlərin qaytarılması Ermənistanda müəyyən narazılıqlarla müşayiət olunsa da, artıq proses yekunlaşıb. Bununla bağlı Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin xidməti məlumat yayıb. Məlumatda bildirlir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin işğaldan azad olunmasını təmin etmək məqsədilə 2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın 8-ci görüşünün Protokolu imzalanıb.

Qeyd olunan Protokolun həyata keçirilməsi məqsədilə sərhəd xəttinin koordinatları üzrə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirmə aparılıb və müvafiq sərhəd xəttinin keçməsinin Protokol-təsvirini özündə əks etdirən birgə çöl işlərinin nəticələri haqqında Texniki Protokol tərtib olunub.

2024-cü il mayın 15-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə komissiyaların növbəti - 9-cu görüşü keçirilib, sözügedən Texniki Protokol razılaşdırılıb və bu barədə komissiyaların müvafiq Protokolu imzalanıb.

Delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib. Bununla da Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrımın, Aşağı Əskiparanın, Xeyrımlının və Qızılhacılının ərazilərinin (6,5 kvadratkilometr) Azərbaycana qaytarılması təmin edilib. Mayın 24-də Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.

Qeyd edək ki, bəhs olunan kəndlər ötən əsrin doxsanıncı illərinin əvvəllərində işğal altına düşüb. Qazax rayonunun Bağanıs Ayrım Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycanın ilk kəndidir. Kənd 1990-cı il martın 23-dən 24-ə keçən gecə hücuma məruz qalıb və martın 24-ü səhər saatlarında süqut edib. İşğal zamanı Bağanis Ayrım kəndinin əli silahsız, günahsız əhalisinə qarşı amansız vəhşiliklər örədilib. Kəndin müdafiəsi zamanı 10 nəfər həyatını itirib, 15 nəfərdən çox insan isə yaralanıb. 100-dən çox evi olan kənd bütünlüklə talan olunub, əhalinin kənddən çıxara bilmədiyi ev əşyaları və mal-qara ermənilər tərəfindən mənimsənilib. Xüsusi strateji əhəmiyyətli Bağanis Ayrım kəndi İcevan - Noyamberyan avtomobil yolu üzərində yerləşdiyindən düşmən gələcəkdə daha rahat hərəkət etməsi üçün bu kəndin işğalını xüsusi plan əsasında həyata keçirib. Bundan ruhlanan ermənilər sonradan digər kəndlərimizi də ələ keçirməyə müvəffəq olublar. Kəndlərin işğalı respublikamızın o dövrdəki rəhbərliyinin biganəliyinin və məsuliyyətsizliyinin nəticəsi idi. Ermənilərin kəndlərimizi nəzarətə götürəcəkləri ilə bağlı siqnallar gəlsə də, bu məlumatlar ciddiyə alınmayaraq müdafiə üçün tədirlər görülməmişdi.

**Azərbaycan Prezidentinin bir kəlməsi ilə**

Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi, tələsmədən və gecikmədən mühüm qərarlar qəbul etməsi Azərbaycana son 200 illik tariximizin ən böyük qələbələrini bəxş edib. 2020-ci ildə baş verən Vətən müharibəsində biz Ordumuzun şücaəti ilə əldə olunan şanlı Zəfər sayəsində ərazi bütövlüyümüzü hərbi-siyasi yolla təmin etdik. 2023-cü il sentyabrın 19-da başlayan uğurlu 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticəsi olaraq isə Qarabağda suverenliyimiz tam təmin olundu. Ötən il oktyabrın 15-dən etibarən Xankəndi və Xocalı da daxil olmaqla, ölkənin bütün ərazisində üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə öz məqsədlərinə doğru addım-addım irəliləyir. Anklav olmayan dörd kəndin döyüşsüz, bir güllə atılma-



dan, qan tökülmədən geri qaytarılması Azərbaycanın növbəti uğurudur. Bu, respublikamızın suverenliyinin təmin olunması istiqamətində növbəti addımdır.

Deyə bilərik ki, bəhs olunan kəndlərin diplomatik yolla geri qaytarılması dövlətimizin başçısının qətiyyətli siyasi iradəsinin, onun bir kəlməsinin bəhrəsidir. Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikri yada salaq: “O kəndlər ki, anklav deyil - 4 kənd - onlar Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. Yəni bizim mövqeyimiz bundan ibarətdir”. Dövlətimizin başçısı bu kəlmə ilə qarşı tərəfə qəti mesajını vermişdi. Azərbaycan Prezidentinin bu kəlməsinin arxasında ölkəmizin gücünün və ədalətli mövqeyinin dayandığının fərqində olan Ermənistan rəhbərliyinin kəndləri qaytarmaqdan başqa çıxış yolu yox idi.

**İkitərəfli dialoqun bəhrəsi**

Artıq sülh yolunda dönməz proseslər başlayıb. Kəndlərin qaytarılması ikitərəfli dialoq müstəvisində baş tutdu. Bu platformanın təşəbbüskarı da Azərbaycandır. Məlumdur ki, respublikamız sülhyaratma prosesində bütün formatlarda aparılan danışıqlarda həmişə konstruktiv mövqe sərgiləyib, eyni zamanda, milli maraqlarından da geri çəkilməyib. Sülh prosesində yer almaq istəyən Fransa kimi ölkələr isə Cənubi Qafqazda öz maraqlarının təmin olunmasına çalışırdılar və müxtəlif vasitələrlə etimad quruculuğuna əngəllər yaradırdılar. Brüssel formatı da məhz bu səbəbdən iflasa uğradı. Belə olanda Azərbaycan ikitərəfli dialoqun üstünlüklərini əsaslandırdı. Zaman və əldə olunan ilk nəticələr ikitərəfli dialoqun nə qədər səmərəli olduğunu təsdiqləyir.

Regionda yeni bir konfiqurasiyanın formalaşdığını müşahidə edirik. Artıq uzun illər ərzində bağlı qalan Ermənistan-Türkiyə sərhədinin açılması ilə bağlı müzakirələr də intensivləşib. Bu günlərdə Ermənistan mediası iki ölkənin sərhədində yenidən təmir olunmuş və açılması ilə bağlı qərar gözləyən Marqara keçid məntəqəsinin görüntülərini yayıb. Rəsmi açıqlamaya istinadən bildirib ki, burada sıfırdan gözləmə zalı, hərtərəfli yoxlama anqarı, yüklərin rəsmiləşdirilməsi pavilyonları, anbar və dayanacaqlar, eləcə də müasir avadanlıqla təchiz olunmuş digər infrastrukturlar tikilib. Beləliklə, anklav olmayan dörd kəndin Azərbaycana qaytarılması, sərhədin delimitasiya olunmasına start verilməsi, Ermənistan-Türkiyə sərhədində keçid məntəqəsinin yenidən qurulması və bu kimi digər faktlar regiona çoxdan gözlənilən sülhün bərqərar olacağına böyük ümidlər yaradır.

## Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin işğaldan azad olunmasını təmin etmək məqsədilə 2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın 8-ci görüşünün Protokolu imzalanıb.

Qeyd olunan Protokolun həyata keçirilməsi məqsədilə sərhəd xəttinin koordinatları üzrə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirmə aparılıb və müvafiq sərhəd xəttinin keçməsinin Protokol-təsvirini özündə əks etdirən birgə çöl işlərinin nəticələri haqqında Texniki Protokol tərtib olunub. 2024-cü il mayın 15-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə komissiyaların növbəti - 9-cu görüşü keçirilib, sözügedən Texniki Protokol razılaşdırılıb və bu barədə komissiyaların müvafiq Protokolu imzalanıb.

Delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib. Bununla da Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrımın, Aşağı Əskiparanın, Xeyrımlının və Qızılhacılının ərazilərinin (6,5 kvadratkilometr) Azərbaycana qaytarılması təmin edilib.

Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülən Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb, Dövlət Himni oxunub.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri Laçın şəhərində səfərdə olub

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin - səfirlərin, hərbi attaşelərin və beynəlxalq təşkilatların təmsilçilərinin mayın 24-də Laçın şəhərinə səfər ediblər. Diplomatik korpusun nümayəndələri Laçın İqlim Fəaliyyəti Dialoqu çərçivəsində COP29-la əlaqədar təqdimat mərasimində iştirak ediblər. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev və digər rəsmi şəxslər çıxış ediblər.



Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev çıxışı zamanı bildirib ki, bizim komandamız artıq bir neçə aydır ki, COP29 üçün hazırlıqlar görür. Bugünkü tədbir isə sizin təkliflərinizi dinləmək üçün bir fürsətdir. Ümidvarıq ki, bütün ölkələr COP29 ilə bağlı anlayış və həmrəylik göstərəcəklər. Onlar öz səylərini birləşdirərək birbirinə daha yaxın olacaq, bu da məsələləri həll etməyimizə kömək edəcək.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, COP tədbiri bütün ölkələr üçün əlverişli olub, indi isə Azərbaycan həmin səyləri artıq konkret fəaliyyətə çevirməyə başlayıb. Azərbaycanın əsas məqsədi COP hədəflərinə nail olmaq üçün hərəkətə keçmək və daha da irəliləməkdir.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri - səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların təmsilçiləri mayın 24-də Laçın İqlim Fəaliyyəti Dialoqu çərçivəsində Zerti Aqro-Sənaye Parkında olublar. Diplomatlara Zerti Aqro-Sənaye Parkındakı heyvanlar, yem istehsalı, həmçinin göyərti və pomidor becərilməsi üçün konteyner tipli təsərrüfatlar barədə məlumatlar verilib. Bildirilib ki, burada fəaliyyət göstərən bütün müəssisələr ən müasir texnologiyalarla təchiz olunub. Laçınlılar xaricdən dəvət edilmiş mütəxəssislərdən dərs alaraq həm işlə təmin olunur, həm də peşəkar vərdişlərə yiyələnirlər. Bu mənada, Aqro-Sənaye Parkında fəaliyyət göstərən hər bir müəssisə həm də tədris-təlim mərkəzi sayıla bilər.

Diplomatik korpusun nümayəndələri sonra “Hoçazfilm” studiyasına gəliblər. Məlumat verilib ki, çoxşaxəli yaradıcılıq məkanı olan “Hoçazfilm”in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir. Pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur.

Diplomatlar Qarabağ və Şərqi Zəngəzur ərazisində ekosistemin bərpasına töhfə vermək məqsədilə Həkəri çayının Laçın rayonu ərazisindən keçən hissəsinə forel balıqlarının buraxılması prosesini də izləyiblər. Sonra 28 May - Müstəqillik Gününə həsr olunan “Xalça belə yarandı” sərgisinin açılışı olub. Sərgidə milli xalçalarla yanaşı, müxtəlif dizaynlarda hazırlanmış sənət nümunələri də nümayiş etdirilib. Bununla da Azərbaycanda akkreditə olunan diplomatik korpus təmsilçilərinin Laçına səfəri başa çatıb.

# Nazirlər Kabinetində Naxçıvan MR-nın inkişafına dair iclas keçirilib



Mayın 24-də Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetində “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı iclas keçirilib. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanların rəhbərlərinin müavinlərinin və digər məsul şəxslərin iştirak etdikləri iclasda Dövlət Proqramının 2023-cü il üzrə monitorinqinə və 2024-cü ildə yerinə yetirilmiş işlərin cari vəziyyətinə dair hesabatlar təqdim edilib. Habelə Dövlət Proqramının 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planının layihəsinin hazırlanması ilə bağlı məsələlər müzakirə olunub.

Müzakirələrdə Dövlət Proqramının icrası çərçivəsində həyata keçirilən layihələr diqqətə çatdırılıb, icra prosesində müşahidə edilən əsas çətinliklər və onların aradan qaldırılması üçün görülməli olan tədbirlər vurğulanıb. Müzakirələr nəticəsində Dövlət Proqramının icrasının səmərəliliyinin daha da artırılması ilə əlaqədar aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

# Azərbaycan-Tacikistan əlaqələri qarşılıqlı etimad və hörmətə əsaslanır

## Strateji Tərəfdaşlıq Bəyannaməsi yeni siyasi-iqtisadi hədəfləri müəyyən edir

Azərbaycanın uğurlu xarici siyasətində Tacikistanla münasibətlərin inkişaf etdirilməsi xüsusi diqqətdə dayanır. Əsrlərə söykənən tarixi, mədəni, dini bağlılığa malik Azərbaycan-Tacikistan dostluq və qardaşlığı hər zaman səmimiyyət və həqiqi qarşılıqlı hörmət prinsipləri üzərində inkişaf edib. Sovetlər dövründə hər iki respublikanın çox yaxın əlaqələri olub. Müstəqillikdən sonra isə münasibətlərdə yeni mərhələ başlayıb və hər iki ölkə əsl dostluq şəraitində yeni imkanlara əsaslanaraq siyasi-iqtisadi, elmi-mədəni, humanitar-sosial və digər sahələrdə çoxtərəfli hərarəti artırıb.



Münasibətlərin yüksək səviyyəyə çatmasında dövlət başçılarının siyasi iradəsi mühüm rol oynayıb. Son illərdə isə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Mərkəzi Asiya ölkələrinin liderləri, o cümlədən Tacikistanın dövlət başçısı ilə qarşılıqlı səfərlər zamanı səmimi görüşləri və müzakirələri siyasi münasibətləri və açıq dialoqu daha da gücləndirib, münasibətlərin strateji xarakter almasını təmin edib. Səfərlər zamanı imzalanan müqavilələr hər iki ölkə arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini müəyyənləşdirib.

Mayın 22-23-də Azərbaycanda səfərdə olan Tacikistan Prezidenti Emoməli Rəhmonun Prezident İlham Əliyevlə görüşləri əlaqələrin siyasi ritmini və səmərəliliyini daha da böyüdüb. Dövlət başçılarının görüşü zamanı ortaya qoyulan siyasi iradənin ən mühüm əlamətlərindən biri kimi yeni geosiyasi layihələrdə birləşmək təşəbbüsləri bu baxımdan xüsusi qiymətləndirilə bilər. Xüsusilə də münasibətləriin yeni xarakterini, ruhunu və siyasi keyfiyyətini artıracaq və qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edəcək Strateji Tərəfdaşlıq Bəyannamə çox mühüm dövlətlərarası saziş sayıla bilər. Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə yanaşı, daha 13 sənəd imzalanıb ki, bu, münasibətlərin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Xüsusilə də Bəyannamə gələcək siyasi və iqtisadi hədəflərə nail olmaq üçün Yol xəritəsi hesab oluna bilər. Azərbaycan Prezidentinin bəyan etdiyi kimi iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumətimizin üzvlərinə konkret tapşırıqlar verildi ki, bu da bölgənin ən strateji nəqliyyat-tranzit xətlərində birgə hərəkətin ifadəsi deməkdir.

Azərbaycan və Tacikistan arasında birfə iradənin ən məzmunlu və gələcək iqtisadi-siyasi əlaqələndirmənin nəhəng platforması və uzunömürlü sütunu trans-nəqliyyat koridorunda birgə səyləri artırmaq niyyətidir. Nəqliyyat sektoru üçün hədsiz dərəcədə iri bir tranzit vektoru olan bu razılaşma Orta Dəhlizin bir hissəsi olan Transxəzər Nəqliyyat Dəhlizinin Azərbaycanla Tacikistanı birləşdirməsi deməkdir. Bu dəhliz böyük bir coğrafiyada - Şərq və Qərbə, Şimal və Cənuba və əks istiqamətlərdə böyük həcmdə yüklərin hərəkətini şaxələndirəcək və hər iki ölkəyə bir çox üstünlüklər qazandıracaq.

Tacikistan Prezidenti Emoməli Rəhmon da bu dəhlizdə birgə tərəfdaşlığın əhəmiyyətindən məmnunluğunu gizlətməyib. Onun "nəqliyyat və kommunikasiya sahələrinə xüsusi diqqət yetirən Azərbaycanın bir ərazilərdən keçən xətlərdən yük daşımalarının həcminin artması tendensiyasını məmnunluqla qeyd edirik" fikri Tacikistanın Orta Dəhlizdə yer almağa hədsiz müsbət yanaşdığının göstəricisidir.

Göründüyü kimi Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb və Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizləri ailəsinin fəal üzvü olan Azərbaycan "Bir kəmər, Bir yol" layihəsinə qoşulduqdan sonra öz nəqliyyat infrastrukturunu tam yeniləşdirməklə və genişləndirməklə bərabər, bu koalisiyaya bütün dost ölkələri cəlb edir. Xəzər dənizində ən böyük ticarət qovşağı olan Bakı Beynəlxalq Dəniz Limanının inşa olunması, Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi, Ələt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturlarının şaxələndirilməsi və modernləşdirilməsi, avtomagistrallar, hava limanları kimi yeni layihələrin yaradılması da "Bir kəmər, bir yol" təşəbbüsünə və böyük bir nəqliyyat ailəsinin birləşməsinə xidmət edir.

Mərkəzi Asiya ölkələrinin demək olar ki, hər biri Orta Dəhlizdə təmsil olumaqdadır. Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən və ticarət əlaqələri üçün mühüm bağlantıya çevrilən Transxəzər Beynəlxalq Nəqliyyat Qazaxıstan, Özbəkistan, Türkmənistan Azərbaycanla birgə qovşaqların birləşdirilməsinə dair sazişlərə imza atıb, Qırğızıstan da faktiki olaraq bu sırada yer almaqdadır. Bu baxımdan Tacikistan Azərbaycanın nəqliyata strategiyasında ortaq iqtisadi baxışların bir ifadəçisi kimi yer alır və bu ailədə özünə əlverişli yer edir.

Qazaxıstan, Özbəkistan və Azərbaycan ittifaqının əsas komponenti isə "yaşıl enerji" dəhlizidir. Mayın 1-də Daşkənddə keçirilən görüşdə 3 ölkənin iqtisadiyyat və energetika nazirləri Mərkəzi Asiyanın Günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin körpü rolunu oynayacaq Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini müzakirə ediblər. Müzakirələrin yekununda imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Əməkdaşlıq Memorandumu"na əsasən, tərəflər enerji səmərəliliyinin artırılması, "yaşıl" iqtisadiyyatın artımını stimullaşdıran inteqrasiya olunmuş regional şəbəkənin yaradılması nəzərdə tutulur. Niyyət hər 3 ölkənin mövcud külək və Günəş enerjisi resurslarını vahid dəhlizdə birləşdirərək Avropaya nəql etməkdir.

Çünki Orta Dəhlizin rentabelli işlək coğravi qovşaqlarından biri kimi hər il öz əhəmiyyətini artırır. 2020-2022-ci illərdə bu dəhlizdə nəql edilmiş yükün ümumi həcmi 350-550 min ton arası olsa da, 2022-ci ildə bu rəqəm 3,4 milyon tona qədər artıb. 2023-cü ildə bu marşrutla daşınan yüklərin həcmi 86% artaraq 3,7 milyon ton təşkil edib. Yəni bu o deməkdir ki, Tacikistan da digər dövlətlər kimi Orta Dəhlizin potensial imkanlarından yüksək dəyər əldə edərək iqtisadiyyatlarına əlavə dəyər qata biləcək. Həmin dəhlizin bir hissəsi isə Zəngəzur transkommunikasiya xəritəsidir və Tacikistan Orta Dəhliz-Zəngəzur vahid nəqliyyat xəttində də yer almış olacaq.

***ELBRUS CƏFƏRLİ***



Mayın 23-də Mərkəzdə italiyalı heykəltaraş Canfranko Megiatonun fərdi sərgisi açılıb. Oktyabrın 26-dək davam edəcək "Görünməyənin cizgiləri" adlı sərgidə müəllifin 40-dək əsəri nümayiş olunur. Açılış mərasimindən əvvəl heykəltaraş Canfranko Megiato jurnalistlərə açıqlamasında əsərlərinin Heydər Əliyev Mərkəzində nümayiş etdirilməsindən məmnunluq hissi keçirdiyini deyib. Heykəltaraş buranın onun üçün sonsuzluq ifadə etdiyini qeyd edib. O, bəzi əsərlərində Mərkəzin binasından da ilhamlandığını bildirib. "Əsərlərimin məhz bu məkanda sərgilənməsi mənim üçün bir stimul oldu. Həmçinin qeyd etmək istəyirəm ki, ekspozisiyada yer alan əsərlərin 19-u ictimaiyyətə ilk dəfə təqdim olunur", - deyə Canfranko Megiato əlavə edib. Heykəltaraşın sözlərinə görə, Azərbaycan öz milli-mənəvi dəyərlərini Avropadan fərqli olaraq qoruyur və gələcəkdə də qoruyub saxlayacaq.

# Heydər Əliyev Mərkəzində "Görünməyənin cizgiləri" sərgisi açılıb

Bakı sərgisi üçün hazırlanmış əsərlər sırasında "Cücərmə" ("Germination"), "Kvant nəfəsi" ("Quantum Breath"), "Mistral" ("Mistral"), "Elm və bilik" ("Science and Knowledge"), "Oyanış" ("Awakening"), "Yaradılış" ("Creation") və digərləri izləyicilərdə böyük maraq yaradacaq.

Ekspozisiya Mərkəzin park ərazisində, foye və sərgi zalında qurulub. Mərkəzin qarşısında yer alan 6 metr hündürlükdə olan "Cücərmə" ("Germination") adlı əsər isə xüsusi məna daşıyır. Əsər "biz hamımız bir ağacın yarpaqlarıyıq, bir orqanizmin hüceyrələriyik, bir varlığın hissələriyik. Bəşəriyyət ikili yanaşmanı aradan qaldırmaq üçün birlik və qardaşlığın bu konsepsiyalarını qəbul etməyincə nə sülh, nə də mənsub olduğumuz ətraf mühitə hörmət olacaq", - ideyasını çatdırır.

Tədbiri açan Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov diqqətə çatdırıb ki, Mərkəzdə uzun müddətdir bir çox heykəltaraşın əsərləri təqdim edilib. O, bugünkü sərgidə yer alan əsərlərin ziyarətçilərdə böyük maraq doğuracağını deyib və sərginin ərsəyə gəlməsində əməyi keçənlərə, xüsusən cənab Megiatonun bu işə həssasla yanaşdığına görə təşəkkürünü bildirib.

Xalq rəssamı Fərhad Xəlilov sərginin Heydər Əliyev Mərkəzinin binası ilə unikal uyğunluq yaratdığını söyləyib. "İtaliya sözü səslənəndə bir çox insanın qəlbində gözəl, isti hisslər yaranır. Hesab edirəm ki, bizim doğma, oxşar hisslərimiz var", - deyə Xalq rəssamı qeyd edib.

İtaliyanın Roma şəhərində Kolizey Arxeoloji Parkı Direktorlar Şurasının üzvü Alberto Samona bildirib ki, əsərləri seyr edəndə sanki gözə görünməyən hissə ilə əlaqə qurulur: "Bütün sərhədləri aşaraq materiyanın özlüyündə hiss etmək imkanı yaranır. Nəzərə alsaq ki, materiya öz-özündə enerjini ehtiva edən bir məfhumdur, çoxtərəflikdən gəlib vahid bir məfhuma çıxırıq. Təbii bir haldır ki, bu, məhz Bakıda baş verir. Əgər şəhərin tarixinə baxsaq, onun adına nəzər salsaq, bunun bizi kainata bağlayan bir məfhum olduğunu görə bilərik. Bütün bunlar burada əsən küləkdə, hər bir nəfəsdə duyulur. Canfrankonun əsərində görünməyən görünənə çevrilir. Enerji, ruh materiya formasını alır. Beləliklə, bizim hamımızın qarşısında yeni fürsətlər açılır. Biz hamımız vahid bir yerə toplaşmaq imkanı əldə edirik", - deyə A.Samona əlavə edib.

Canfranko Megiato müasir incəsənət sahəsində dünyanın məşhur platforması kimi qəbul edilən Beynəlxalq İncəsənət Sərgisi - Biennalenin vətəni olan Venesiyada 1963-cü ildə dünyaya göz açıb. O, elə burada Dövlət İncəsənət İnstitutunda heykəltaraşlıq üzrə təhsil alıb. Megiato 16 yaşından əsərlərini sərgiləməyə başlayıb. Rəssam heykəllərinə elə quruluş verir ki, həmin əsərlər özünü və zəngin daxili dünyasını dərk etməyə çalışan insanın keşməkeşli yolunu təcəssüm etdirir.

Heykəltaraşın əsərləri vətəni İtaliya ilə yanaşı, ABŞ, Almaniya, Avstraliya, Avstriya, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Danimarka, Fransa, Hindistan, İsveçrə, İspaniya, Küveyt, Monako, Niderland, Portuqaliya, Rusiya, Sinqapur, Ukrayna və digər ölkələrdə sərgilənib.




# COP29-un ən vacib mirası

*Mübariz ABDULLAYEV*

Qlobal həmrəyliyə davamlı töhfələr verən Azərbaycan cari ilin noyabrında daha bir mühüm beynəlxalq tədbirə - COP29-a ev sahibliyi edəcək. Tədbirə beynəlxalq səviyyədə böyük maraq var, ölkəmizə on minlərlə qonağın gələcəyi gözlənilir. Azərbaycan belə bir genişmiqyaslı qlobal konfransa ev sahibliyi hüququnun verilməsini həm beynəlxalq birliyin etimadı, həm də böyük məsuliyyət kimi qəbul edərək ciddi hazırlıq tədbirləri görür. Prezident İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına verdiyi müsahibəsində COP29-un gündəliyinə xüsusi diqqət çəkib. Dərin təhlillər əsasında hazırlanan bu gündəlik dünyada yaşanan iqlim dəyişikliyi ilə bağlı yaranan çağırışlara adekvatdır və nəzərdə tutulan genişmiqyaslı tədbirləri əhatə edir.

**Dünyada qlobal iqlim dəyişikliyinin yaratdığı kədərli mənzərə**

Hazırda dünya üzrə iqlim dəyişikliyi ilə bağlı çağırışların aktuallığının artması heç də təsadüfi deyil. Ekspertlər kədərli müqayisələr aparırlar. Bildirlir ki, əgər bir vaxtlar qlobal səviyyədə əhali artımına, insanların həyat tərzinə, sosial vəziyyətinə daha çox dərəcədə müharibələr mənfi təsir göstərirdisə, indi burada iqlim dəyişikliyi önə çıxmaqdadır. Dünyanı təhdid edən iqlim dəyişikliyinin qlobal istiləşmə və sürətli sənaye inkişafının nəticəsi olaraq yarandığı bildirilir. Uzun illərdir ki, dünyada artan əhali neft, qaz, kömür yandırır. Eyni zamanda, avtomobillərin sayı sürətlə artır. Bütün bu kimi fəaliyyətlər atmosverə daha çox həcmlərdə tullantıların, karbon qazının buraxılması ilə nəticələnir. Eyni zamanda, qlobal istiləşmənin sürətlənməsi həyəcan təbili çalmağa əsas verir. 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Ötən il dünya tarixinə ən isti il kimi daxil oldu. Təbii fəlakətlərin - isti küləklərin, qasırğaların, yağıntıların, sel və daşqınların sayı əhəmiyyətli dərəcədə artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq bu göstərici 2000 metr dərinliyə qədər çatır.

Fəsadlar da çox ağırdır. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan təhlükəsizliyinə, milli iqtisadiyyatlara, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il təxminən 13 milyon insanın həyatına son qoyur. Bu gün iqlim dəyişikliyi insanları yoxsulluğa sövq edən və həyat tərzinin yaxşılaşmasına mane olan əsas problemlərdən biri qismində çıxış edir. XXI əsrin ikinci onilliyində (2010-2019) ekologiya ilə bağlı hadisələr hər il orta hesabla 23,1 milyon insanı öz daimi yaşayış yerindən köçmək məcburiyyəti ilə üz-üzə qoyub.

Azərbaycan da qlobal iqlim dəyişmələrindən əziyyət çəkən ölkələr sırasında yer alır. Bir qədər bundan əvvəl "Azərkosmos" "Yaşıl dünya naminə həmrəylik İli"nə həsr olunmuş konfransda qlobal iqlim dəyişmələrinin Azərbaycanda təsirinə dair hazırladığı rəqəmsal iqlim platformasını ictimaiyyətə təqdim edib. "Azərkosmos"un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Məsələn, 2017-ci ildə ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarının güzgü səthinin sahəsi 48 min 259 hektar idisə, ötən il bu rəqəm 46 min 438 hektara enib. Deməli, 2 min hektara yaxın azalıb. "Azərkosmos"un hesablama apardığı Araz su anbarında bu azalma 1 min 800 hektar, Yenikənd su anbarında 74 hektar, Taxtakörpü su anbarında isə 286 hektar olub. Təqdim olunan bu kimi faktlar həyəcan təbili çalmağa əsas verir.

**Qlobal təhdidə qarşı Azərbaycanın qlobal həmrəylik çağırışı**

Bəhs olunan müsahibəsində Prezident İlham Əliyevin vurğu etdiyi kimi, dünyada iqlim çağırışları ilə bağlı fikirlər heç də həmişə üst-üstə düşmür. Fərqli çağırışlar edilir, bir sıra hallarda isə müxtəlif strukturlu iqtisadiyyatlara və inkişaf səviyyələrinə malik ölkələrin bir-birlərini ittiham etmələrinin şahidi oluruq. Belə yanaşmalar ümumi məqsədlərə çatmağa kömək edə bilməz. Çağırışlar bütün dünya üçün olduğu kimi, dövlətlərin qarşıya qoyduqları məqsədlər də uyğunlaşdırılmalı və səylər birləşdirlməlidir. COP29-a ev sahibliyi edəcək Azərbaycanın mövqeyi belədir ki, qlobal təhdidlər fonunda hər bir ölkə öz məsuliyyətini anlayaraq iqlim dəyişikliyinə qarşı milli səviyyədə özünün gündəliyini müəyyənləşdirməlidir. Bu mənada məsuliyyətli dövlət olan Azərbaycanın yanaşması təqdirəlayiqdir. Respublikamız iqlim dəyişikliyi ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulan ölkələr sırasında yer alır. Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub və Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiqləyib. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Milli Məclis tərəfindən ratifikasiya edilib və ölkə Prezidenti tərəfindən təsdiqlənib. Digər bir mühüm beynəlxalq sənəd olan Paris Sazişi isə 2016-cı il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunub. Respublikamız BMT-nin çağırışına qoşularaq neft sənayesində "sıfır emissiya" hədəfi müəyyənləşdirib. Qəbul olunan strategiyaya əsasən, indiki mərhələdə ətraf mühit məsələləri ölkəmizin beş milli prioriteti sırasında yer alır. Respublikamız 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Milli səviyyədə öz məsuliyyətini və nümunəsini nümayiş etdirən Azərbaycanın həmçinin iqlim dəyişikliyinə qarşı qlobal həmrəyliyin möhkəmlənməsinə töhfələr vermək imkanları da böyükdür. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Məlumdur ki, Azərbaycanın Qoşulmama Hərəkatında (QH) körpü rolunu oynamaqda böyük təcrübəsi var. Respublikamız Hərəkata dörd il ərzində sədrlik həyata keçirib. Azərbaycanın 120 ölkənin birləşdiyi quruma sədrliyi dönəmində QH böyük tərəqqiyə nail oldu, onun funksionallığı və beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artdı. Eyni zamanda, respublikamız Avropa İttifaqına (Aİ) üzv olan ölkələrlə fəal işləyir. Azərbaycan indiyədək Aİ-yə üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayıb. Bundan başqa, respublikamız geniş İslam coğrafiyasında böyük nüfuza malik olan ölkədir. Bütün bunlar respublikamızın birləşdirici rolunu gücləndirən amillərdir. Əsas məqamlardan biri də Azərbaycanın xoş niyyəti və siyasi iradəsi ilə bağlıdır. Ölkəmiz malik olduğu potensialdan və imkanlardan heç vaxt başqalarına qarşı təzyiq vasitəsi kimi istifadə etmir, əksinə daim qlobal həmrəyliyi, barışığı, ümumi məqsədləri hədəfləyən təşəbbüslər irəli sürür. Prezident İlham Əliyev diqqəti ona çəkib ki, indiki mərhələdə qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq kimi suallara cavab tapılmalıdır. "Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik", - deyə dövlətimizin başçısı vurğulayıb.

Hazırda iqlim dəyişikliyi çağırışları fonunda qazıntı yanacağı mövzusu da ciddi müzakirə predmetinə çevrilib. Təəssüf doğuran haldır ki, bir sıra hallarda qazıntı yanacağı istehsal edən ölkələr tənqidlərə tuş gəirlər. Belə yanaşma doğru deyil. Prezident İlham Əliyevin verdiyi mesajlardan biri ondan ibarətdir ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Fikirlərinə davam edən dövlətimizin başçısı bildirib: "Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir".

**Enerji transformasiyası**

Bəhs olunan müsahibədə müxbir dövlətimizin başçısına "COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?" sualını ünvanlayıb. Prezident İlham Əliyev həmin suala "Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq" - deyə cavab verib.

Dövlətimizin başçısının bu cavabı dünyaya bir çağırış olmaqla yanaşı, həm də ölkəmizin reallıqlarını və gündəliyini təcəssüm etdirir. Azərbaycanın COP29-a ev sahibliyi etməsi, şübhəsiz ki, ölkəmiz üçün 2024-cü ilin ən mühüm hadisəsi olacaq. Bunu, eyni zamanda, respublikamızın yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək mümkündür. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik İli" elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, həmçinin Azərbaycanın müsbət ekoloji dəyişmələr yaratmaq məqsədi daşıyan ölkələr üçün nümunə olmaq istəyidir, eyni zamanda, gələcək nəsillər üçün daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır. Ölkəmiz "yaşıl enerji" iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də təsdiqləyir. Yeni qlobal çağırışların yarandığı indiki mərhələdə enerji transformasiyası Azərbaycanın da gündəliyində dayanan vacib məsələlər sırasında yer alır. Karbohidrogen resursları ilə zəngin olan respublikamız da elektrik enerjisi istehsalında yaşıl enerjinin xüsusi çəkisinin artırılmasını hədəfləyib. Bu da onunla bağlıdır ki, respublikamız bərpaolunan enerji mənbələri ilə kifayət qədər zəngin bir diyardır. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 27000 MVt həcmində qiymətləndirilir. Qeyd edək ki, son illərdə respublikamızda külək enerjisi istehsalı 131 dəfə, Günəş enerjisi istehsalı isə 55 dəfə artıb. Ölkəmiz növbəti illərdə bərpaolunan enerjinin ümumi istehlakda payını artırmaq niyyətindədir. Bu sahədə 2030-cu ilədək qarşıya qoyulan hədəf bərpaolunan enerjinin ümumi istehlakda payının 30 faizdən çox artırılmasına nail olmaqdan ibarətdir.

# Azərbaycan - Qoşulmama Hərəkatı əməkdaşlığı: Yadda qalan uğurlu yol




*Mübariz FEYİZLİ*

Milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursuna malik olan Azərbaycan hazırda bir sıra beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Belə təşkilatlardan biri də Qoşulmama Hərəkatıdır (QH). Ölkəmiz tarixin bu günündə - 26 may 2011-ci ildə İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək QH-na tam hüquqlu üzv qəbul olunub. Həmin dövrdən etibarən respublikamız qurumun fəaliyyət istiqamətlərinin genişlənməsinə, ideyalarının təşviqinə və həyata keçiriləsinə özünün sanballı töhfələrini verir. Qürurverici haldır ki, bu gün Qoşulmama Hərəkatında Azərbaycana və onun Lideri İlham Əliyevə dərin hörmət bəslənilir.

**Dünyada BMT-dən sonra ən böyük beynəlxalq təşkilat**

Tərkibində 120 dövləti birləşdirən Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ən böyük beynəlxalq təşkilatdır. Hərəkatın əsası müstəmləkə sisteminin süqutu, Afrika, Asiya, Latın Amerikası və dünyanın digər region xalqlarının müstəqillik mübarizəsi zamanı, soyuq müharibənin qızğın çağında qoyulub.

Ötən əsrin ortalarında - 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən Asiya-Afrika Konfransı Qoşulmama Hərəkatının təsis edilməsi istiqamətində ilk əhəmiyyətli addım hesab edilir. 1-6 sentyabr 1961-ci il tarixlərində keçmiş Yuqoslaviyanın Belqrad şəhərində Asiya və Afrikanın 25 dövlət və hökumət başçısının iştirakı ilə təşkil olunmuş Zirvə Görüşündə Qoşulmama Hərəkatının institusional əsası qoyulub. QH öz fəaliyyətində 9 bənddən ibarət "Bandunq prinsipləri"ni əsas götürür. Bunlar BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də əsas insan hüquq və azadlıqlarına, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək, sayından asılı olmayaraq bütün irqlərin və xalqların bərabərliyini tanımaq, digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək, BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etməsi hüququna hörmət bəsləmək, böyük dövlətlərin hər hansı xüsusi maraqlarına xidmət etmək üçün kollektiv müdafiə tədbirlərinin istifadəsindən çəkinmək, digər dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir fəaliyyətdən, eləcə də güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina etmək, BMT Nizamnaməsinə uyğun olaraq bütün beynəlxalq mübahisələri dinc, sülh yolu ilə həll etmək, qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək, ədalət və beynəlxalq öhdəliklərə hörmət etmək kimi prinsiplərdən ibarətdir.

**Azərbaycanın QH-da təmsilçiliyi**

Azərbaycan ilk vaxtlarda Qoşulmama Hərəkatında müşahidəçi statusunda iştirak edib. Respublikamız prosedur qaydalarına uyğun olaraq 2011-ci ilin yanvar ayında təşkilata üzvlüklə bağlı müraciət edib. 16 mart 2011-ci il tarixində Qoşulmama Hərəkatının Nyu-Yorkda keçirilən Əlaqələndirmə Bürosunun iclasında ölkəmizin üzvlüyü ilə bağlı ilkin müzakirələr aparılıb. Bəhs olunan islasda Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyü məsələsinin təşkilata üzv dövlətlərin nazirlərinin görüşünün gündəliyinə salınması razılaşdırılıb. Beləliklə, yuxarıda qeyd olunan tarixdə Azərbaycan Respublikası İndoneziyanın Bali adasında təşkilata üzv olan dövlətlərin yekdil dəstəyini qazanaraq Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul edilib.

Həmin tarixdən etibarən Azərbaycan Qoşulmama Hərəkatı ilə əməkdaşlığı uğurla inkişaf etdirir. İndiyədək respublikamız QH-nin bir sıra tədbirlərinə uğurla ev sahibliyi edib. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilən 18-ci Sammitinin böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Zirvə görüşündən 30 il sonra Qoşulmama Hərəkatında təmsil olunan ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi edib. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş çatdırıb.

**Ölkəmizin Hərəkata uğurlu sədrliyi**

Qeyd etdiyimiz kimi, Azərbaycan üzv olduğu bütün beynəlxalq təşkilatlarda özünü məsuliyyətli dövlət kimi təsdiqləyərək böyük nüfuz qazanıb. Bu baxımdan Qoşulmama Hərəkatı da istisna deyil. Azərbaycanın QH-da artan nüfuzunun nəticəsidir ki, Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin respublikamıza həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Azərbaycanın 3 il müddətinə bu təşkilata sədr seçilməsi, şübhəsiz ki, diplomatiyamızın növbəti qələbəsi olub.

2021-ci ildə isə Qoşulmama Hərəkatının üzvləri Azərbaycana müraciət ünvanlayıb və sədrliyi əlavə bir il müddətinə həyata keçirməyi xahiş ediblər. Azərbaycan da öz növbəsində bu təklifi qəbul edib. Nəticədə, Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin onlayn formatda baş tutan Aralıq Konfransında Hərəkat üzvləri yekdilliklə Azərbaycanın sədrliyinin daha bir il, yəni, 2023-cü ilə qədər uzadılması haqqında qərar veriblər. Bu qərar Hərəkat üzvləri tərəfindən Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

**Bakıdan gələn fəal təşəbbüslər**

Azərbaycan Qoşulmama Hərəkatına sədrliklə bağlı geniş gündəlik hazırlamışdı. Ancaq ölkəmizin QH-na sədrliyinin ilk mərhələsində dünya sərt sınaqla - yeni növ koronavirus pandemiyası ilə üz-üzə qaldı. Bu səbəbdən də Azərbaycan Qoşulmama Hərəkatına sədrliyinin gündəliyini yeni qlobal çağırışlara uyğunlaşdırmaq məcburiyyətində qaldı. Həmin dönəmdə bir sıra ölkələrin özünə qapandığını və bunun daha təhlükəli fəsadlara yol açacağını nəzərə alan Prezident İlham Əliyev qlobal liderlik keyfiyyətləri nümayiş etdirdi. Dövlətimizin başçısı QH-nın Sədri statusunda qlobal təhlükə qarşısında beynəlxalq həmrəyliyin möhkəmləndirilməsinə hesablanan təşəbbüs irəli sürdü. Bu təşəbbüs nəzərə alındı və 2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Prezident İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. Xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab olunur. Eyni zamanda, QH-nın sədri kimi ölkəmiz "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Eyni zamanda, 2021-ci ildə Prezident İlham Əliyev Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda çıxışı zamanı Hərəkata üzv dövlətlərin artıq təsisatlanma ideyası üzərində düşünmələrinin vacibliyini qeyd etmişdi. Bu istiqamətdə də Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi səmərəli addımlar ataraq önəmli nəticələr qazandı. Sədrliyimiz dövründə Hərəkatın parlament və gənclər şəbəkələri yaradıldı. 2022-ci ildə Şuşa razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis olundu.

2021-ci ildə Prezident İlham Əliyev Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda postpandemiya dövrünün müzakirə edilməsi məqsədilə Hərəkata üzv ölkələrin yüksək səviyyəli görüşünün keçirilməsi təklifi ilə çıxış etdi. Beləliklə, 2023-cü il martın 2-də ölkəmizdə Qoşulmama Hərəkatının COVID-19-a cavab üzrə Təmas Qrupunun növbəti sammiti uğurla keçirildi. Burada mövzu artıq pandemiyadan sonrakı dünya idi.

**Azərbaycan neokolonializmə "yox" deyir**

Azərbaycan, şəxsən Prezident İlham Əliyev ölkəmizin Qoşulmama Hərəkatının sədri dönəmində, həmçinin neokolonializmlə mübarizəyə geniş cəbhə açdı. Ölkəmiz neokolonializmə "yox" deyir. XXI əsrdə müstəmləkəçiliyin, sümürmə siyasətinin hər hansı bir təzahürünə yer olmamalıdır. Dövlətimizin başçısı Qoşulmama Hərəkatının Bakı Sammitdə vurğuladı ki, dekolonizasiya mühitində yaranmış Qoşulmama Hərəkatı bu mövzuya xüsusi önəm ayırmalıdır. Prezident İlham Əliyev Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırdı. Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Bu ölkə istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Ancaq Fransa həmin ölkələrə yaxşı heç nə gətirməyib, əvəzində müstəmləkələrində utanverici izlər qoyub, burada hərbi cinayətlər törədib, yüz minlərlə insanın ölmünə rəvac verib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı üçün məsuliyyət daşıyır.

Bu günlərdə Fransa, şəxsən prezident Emmanuel Makron Yeni Kaledoniyada kanak xalqının azadlıq mübarizəsini ən qəddar vasitələrlə yatırmağa çalışır. Çoxlu sayda ölənlər və yaralananlar var. Fransanın yeni yüzillikdə keçmişin qalığı olan müstəmləkəçiliyi daha qəddar formada davam etdirməsi, sümürmə siyasətindən əl çəkməməsi bu ölkə üçün üz qarasıdır. Azərbaycanın səyləri sayəsində yaradılan Bakı Təşəbbüs Qrupu Fransanın müstəmləkə ərazilərində, o cümlədən də Yeni Kaledoniyada törətdiyi zorakılıq əməllərini qətiyyətlə pisləyərək azadlıq mübarizəsinə qalxan xalqlara dəstək verir.

**QH-na üzv dövlətlərin Azərbaycana mənəvi-siyasi dəstəyi**

Öz növbəsində Qoşulmama Hərəkatına üzvlük və sədrliyin Azərbaycana töhfələri də böyük olub. 2012-ci ildə respublikamızın 155 ölkənin səsini əldə edərək BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsində QH-na üzv dövlətlərin dəstəyi də öz rolunu oynayıb. Azərbaycan həmçinin Qoşulmama Hərəkatından ölkəmizin həqiqətlərinin beynəlxalq birliyin diqqətinə çatdırılması üçün səmərəli bir platform kimi istifadə edir. İndiyədək ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində daim dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmalarını göstərmək mümkündür. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb.

# "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar"

Mayın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası, YAP Yasamal rayon təşkilatı və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə 28 May-Müstəqillik Günü münasibətilə "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev yaradılmasının 106-cı ildönümünü qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki rolundan bəhs edib. Qeyd edib ki, Azərbaycan xalqının XX əsrin əvvəlində Şərqdə ilk demokratik respublika yaratması mühüm tarixi nailiyyətdir.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın dövlətçilik ənənələrində özünəməxsus yer tutur. O dövrdə Xalq Cümhuriyyəti müəyyən səbəblərdən süqut etdi. Lakin xalqımız XX əsrin sonunda yenidən azadlığa qovuşdu və dövlət müstəqilliyini bərpa etdi. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycanın sarsılmaz bünövrəsini yaratdı, dövlətçiliyimizin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Bu gün Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu müasir müstəqil Azərbaycan dövləti dünyada böyük nüfuza malikdir.



YAP Veteranlar Şurasının sədri qeyd edib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz ən qüdrətli dövrünü yaşayır: "Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafını təmin edən məqsədyönlü və düşünülmüş siyasətinin uğurları, dövlətimizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, beynəlxalq miqyasda nüfuzlu dövlətə çevrilməsi hər bir vətəndaşı qürurlandırır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi üçrəngli bayrağımızın bu gün Şuşada, Xankəndidə dalğalanması, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bayrağımızı azad edilmiş bütün ərazilərdə qürurla ucaltması xalq olaraq bizi hədsiz dərəcədə iftixarlandırır. Bu, ölkə başçısının gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir".

Bakı Dövlət Universitetinin prorektoru Əliş Ağamirzəyev çıxışında bildirib ki, milli dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyəti müstəsna yer tutur. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə demokratik ənənələrin formalaşmasına əhəmiyyətli təsir göstərib. Onun sözlərinə görə, Xalq Cümhuriyyətinin uğurlarından biri də 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasıdır. Bu gün milli dövlətçilik ənənələrimizin davam etdiyini deyən Ə.Ağamirzəyev qeyd edib ki, müstəqil Azərbaycan böyük zəfərlər qazanaraq adını tarixə qızıl hərflərlə yazdırıb: "Ən mühüm nailiyyət isə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasıdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərimiz dirçəlir, cənnət məkana çevrilir. O cümlədən Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması böyük əhəmiyyət kəsb edir".

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dövlətçilik tariximizin şanlı səhifələrindən biridir. Tarixçi kimi elmi işinin XX əsrin əvvəllərində azərbaycanlı deputatların Rusiya Dumasında fəaliyyəti ilə əlaqədar olduğunu deyən D.Seyidzadə həmin dövrdəki deputatların xalqımız üçün böyük işlər gördüklərini söyləyib: "Onlar əsl vətənpərvər ziyalılar idi. Bu insanların fəaliyyəti Xalq Cümhuriyyətinə gedən yolda böyük rol oynayırdı. Onlar fəaliyyətləri ilə cəmiyyətimizi bu prosesə hazırlayırdılar. Nəticədə 1918-ci ilin mayında Xalq Cümhuriyyəti elan olundu. Cümhuriyyət dövründə ana dilində məktəblər açıldı, qadınlara səsvermə hüququ verildi, bir sıra mühüm qanunlar qəbul olundu və digər önəmli addımlar atıldı. Lakin o dövrdə mürəkkəb geosiyasi proseslər baş verirdi və həmin proseslər fonunda Cümhuriyyət cəmi 23 ay yaşaya bildi".

YAP Veteranlar Şurasının üzvü deyib ki, müstəqil dövlətimizi qorumaq, onu sevmək hər bir vətəndaşımızın borcudur. Doğma vətəni sevməyin ən böyük nümunəsini Ulu Öndər Heydər Əliyev göstərib. Heydər Əliyev dövlət başçısı kimi xarici səfərlər zamanı Azərbaycanı böyük sevgi ilə dünyaya təqdim edirdi.

"Hər bir xalq öz tarixini dərindən öyrənməlidir. Biz tariximizi öyrəndikcə azərbaycanlı olduğumuz üçün fəxr edirik. Bu gün Prezidentimiz İlham Əliyev öz siyasəti ilə müstəqil dövlətimizi daha da gücləndirir", - deyə D.Seyidzadə vurğulayıb.

Bakı Dövlət Universitetinin dosenti Xumar Səfərova çıxışında bildirib ki, Xalq Cümhuriyyəti dövründə Azərbaycanın ilk parlamenti, hökuməti yaradılıb, dövlət atributları təsis olunub, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilib. Eləcə də Cümhuriyyətin beynəlxalq səviyyədə tanınması istiqamətində mühüm addımlar atılıb. Parlamentin qəbul etdiyi qanunlar müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynayıb. Onun sözlərinə görə, Cümhuriyyət qurucularının xidmətləri daim xalqımız, dövlətimiz tərəfindən yüksək dəyərləndirilir, onların əziz xatirəsi hər zaman uca tutulur.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb, Yeni Azərbaycan Partiyasının sıralarına qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# 2024-cü ilin büdcəsinin gəlir və xərcləri artırılır

"2024-cü ilin dövlət büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisə daxil olub. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, layihə gələn həftə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılacaq. Layihədə büdcənin həm gəlir, həm də xərclərinin artırılması nəzərdə tutulur. "Büdcə Sistemi" haqqında Qanuna əsasən, may ayının 15-dən tez və oktyabr ayının 15-dən gec olmayaraq cari ilin dövlət büdcəsinə yenidən baxılması barədə Milli Məclis qarşısında məsələ qaldırılır. Bu isə o deməkdir iyun ayında büdcəyə dəyişikiliklər layihəsi parlamentdə müzakirə olunaduqdan sonra qəbul ediləcək.

Büdcə layihəsində dürüstləşmələrin aparılması son 5-6 ilin büdcə praktikasında daha çox təsadüf oluna iqtisadi hadisə kimi xarakterizə oluna bilər və bunun da əsas səbəbi ölkənin büdcə-fiskal siyasətinin qanunauyğunluqlarından biri kimi ötən dövrünün cari sosial-iqtisadi inkişafla bağlı vəziyyətin və ilin sonuna gözlənilən göstəricilərin nəzərə alınmasıdır.

**Bəs, Azərbaycanda cari sosial-iqtisadi inkişafın vəziyyəti buna imkan verirmi?**

2024-cü ilin yanvar-aprel aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri 13 milyard 259,4 milyon manat, xərcləri isə 10 milyard 749,5 milyon manat təşkil edib. Bunlar,




2023-cü ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 9 faiz və 20,4 faiz çox deməkdir. Son nəticədə 4 ayda büdcədə 2 milyard 509,9 milyon manat profisit yaranıb. Bu isə onu əsaslandırır ki, 4 aylıq makroiqtisadi və fiskal vəziyyət çox ümidverici və qənaətbəxşdir.Yəni mövcud şəraitdə ölkəmizin iqtisadi göstəriciləri, fiskal-maliyyə imkanları yaxşılaşıb, büdcədə profisit yaranıb və bu maliyyə-fiskal potensialın böyüməsi məhz ali maliyyə sənədində dəyişikliklərin edilməsini də aktuallaşdırır.

**Büdcənin gəlir və xərcləri nə qədər artırıla bilər?**

Dörd aylıq büdcə profisiti onu deməyə əsas verir ki, ilin sonunda büdcədə fiskal yığımların həcmi daha da arta bilər. Çünki iqtisadi aktivlik, yığım imkanları ilin 2-3-cü rüblərində daha çox olur. Bu baxımdan vergi və digər mənbələr üzrə fiskal yığımların daha da artacağı istisna deyil. Ona görə də büdcədə gəlir və xərclərin təxminən 3 milyard manat məbləğində artırılması mümkündür. Qeyd edək ki, ötən ilin sonunda təsdiq edilmiş 2024-cü ilin dövlət büdcəsinin gəlirlərinin məbləği 34 milyard 173 milyon manat, xərcləri isə 36 milyard 763 milyon manat təsdiq edilib. Büdcə kəsiri isə 2 milyard 590 milyon manat və ya ÜDM-in 2,2 faiz səviyyəsində kəsirlə təsdiqlənib. Büdcədə neftin bir barelinin orta qiyməti 60 dollar nisbətində götürülüb.

Büdcədə dürüsləşmələr aparıldıqdan sonra xərcləriun artımı əlavə maliyyə təminatının yaradılmasına səbəb olacaq. Bu isə ölkəmizdə bir nömrəli vəzifə olan azad edilmiş ərazilin quruculuq işlərinin daha da geniş miqyas almasının ritminin artırılmasına əlavə güc və maliyyə təminatı olacaq. Azad olunmuş ərazilərdə şəhər və kəndlərin bərpası və yenidən qurulması, infrastrukturların yaradılması geniş vüsət alır və bundan sonrakı mərhələdə bu işlərin birbaşa Azərbaycanın öz xərcləri hesabına daha da genişlənməsi əsas çağırışıdır. Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərdə tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, avtomobil yolu, elektirik enerjisi, su təchizatı və digər sahələr üzrə infrastruktur layihələrinin, beynəlxalq tədbirlərin, həmçinin bir sıra digər dövlət vəzifələrinin yerinə yetirilməsi üçün müvafiq maliyyə təminatının yaradılması ilə bağlı hökumətə tapşırıqlar vermişdi və bu ümdə vəzifələrin yerinə yetirilməsində büdcə dürüsləşməsinin mümühm əhəmiyyəti olacaqdır.

Ona görə də, büdcədə azad edilmiş ərazilərlə bağlı nəzərdə tutulan maliyyə təminatının böyük bir hissəsi həm də qeyd edilən ərazilərin yenidən qurulmasına yönəldiləcək. Büdcədən azad edilmiş ərazilərin bərpasına nə qədər çox vəsait ayrılarsa "Böyük Qayıdış" daha da tezləşmiş olur. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması, abadlıq-quruculuq işlərinin həyata keçirilməsi sayəsində bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası əsas strateji çağırışlardan biridir. Bu baxımdan əlavə maliyyə təminatı həmin bölgənin iqtisadiyyatının canlanması, qeyri-neft sektorlarının inkişafına töhfəsinin təmin edilməsində mühüm rol oynaya bilər.

Büdcədə xərclərin artırılmasından sonra digər əsas xərc maddəsi kimi strateji məqsədlərdən biri olan milli təhlükəsizlik məsələlərinin maliyyə təminatının daha da yaxşılaşdırılması prioritetlilik təşkil edəcək. Hazırda dünyada və regionda mövcud geosiyasi və hərbi vəziyyət ölkənin müdafiə qabiliyyətinin daima diqqətdə saxlanılmasını və daha da gücləndirilməsini, müdafiə və milli təhlükəsizlik sahəsində islahatların davam etdirilməsini tələb edir. Bu zəmində, işğaldan azad olunmuş ərazilərdə, ölkə sərhədlərinin bərqərar olunması, toxunulmazlığının təmin edilməsi və davamlı mühafizəsi, ordunun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində əlavə tədbir və layihələrin icrası üçün zəruri maliyyə təminatının yaradılması xüsusi əhəmiyyət daşıyır. Son 3 ildə hərbi-müdafiə infrastrukturlarının müasirləşdirilməsi, azad ərazilərdə yeni nümuməvi ordu birləşmələrinin yaradılması və hərbi strukturların qurulması, Ermənistanla dövlət sərhədində yeni sərhəd infrastrukturların, eləcə də Zəngəzur dəhlizinin yaradılması istiqamətində işlərin miqyasının artması, eyni zamanda, ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və digər geosiyasi çağırışlar həmin sahələrə əlavə maliyyə ayrılmasını zəruri edir. Bütün bunlar nəzərə alınmaqla, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi üçün əlavə vəsait tələb olunur.

Büdcədə əlavə xərclərin maaş artımı və pensiyaların artırılması üçün büdcədən əlavə xərclərin nəzərə alınması mümkünlüyünüə gəlincə, bu, dürüstləşmə zamanı xərclərin həcminə əsasən müəyyən ediləcək. Əgər büdcədə əlavə xərclərin həcmi daha böyükhəcmdə olarsa, həmin sahələrdə də artımlar üçün maliyyə təminatının yaradılması mümkündür. Çünki hökumətin siyasətində sosial məsələlər də prioritetdir və imkanlar artdıqca sosial təminat xərclərinin həcmi də yüksəlir.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycan NATO əməkdaşlığı uğurla davam edir

## Qarşılıqlı səfərlər əlaqələri daha da gücləndirir



Azərbaycan hər zaman sülh və beynəlxalq təhülkəsizlik məsələlərində birmənalı mövqe nümayiş etdirib. Ölkəmiz bütün məsələlərin beynəlxalq hüquq müstəvisində tənzimlənməsinin tərəfdarı kimi çıxış edir. 30 ilə yaxın işğaldan əziyyət çəkən ölkə kimi Azərbaycan terrora qarşı qlobal mübarizənin önündə yer alır. Eyni zamanda, Cənubi Qafqazın aparıcı dövləti sayılan Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə ilə də bölgədə sabitliyin və təhlükəsizliyin təmininə mühüm töhfələr verib. Bu mənada, ölkəmiz nəinki yerləşdiyi regionda, daha böyük coğrafiyada sabitləşdirici amil kimi çıxış etməkdədir.

Vurğulandığı kimi, 30 ilə yaxın erməni işğalından əziyyət çəkən Azərabaycan bütün dövrlərdə silahlı qarşudarmaların əleyhinə olub, təhlükəsizlik amilinin daha yüksək səviyyədə önə çıxması üçün çalışıb. Bunun nəticəsidir ki, ölkəmiz regional və qlobal təhlükəsizliyin təmin edilməsi istiqamətində müxtəlif sahələr üzrə beynəlxalq əməkdaşlığın ən fəal üzvlərindən sayılır. Qlobal təhlükəsizlik sahəsində əməkdaşlıq ölkəmizin də təhlükəsizliyi baxımından prinsipial əhəmiyyət kəsb edir. Vaxtilə Qoşulmama Hərəkatının sədri, BMT TŞ-nin qeyri-daimi üzvü statusunda beynəlxalq təhlükəsizliyin təmini yönündə irəli sürdüyümüz təşəbbüslər beynəlxalq aləm tərəfindən rəğbətlə qarşılanıb. Azərbaycan daima qlobal təhlükəsizlik seqmentinin təmini üçün formalaşdırılan əməkdaşlıq platformalarının üzvü və ya tərəfdaşı olaraq mühüm fəaliyyəti ilə seçilib. Bu mənada, əməkdaşlıq etdiyimiz qrumlardan biri də NATO-dur. Azərbaycan NATO ilə hərbi sahədə yaxın tərəfdaşlığa malikdir - ölkəmiz alyansın bir sıra sülhyaratma missiyasında uğurla təmsil olunub. 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq", 2004-cü ildən isə "Fərdi tərəfdaşlıq" proqramlarına qoşulan, 1999-cu ildə NATO Parlament Assambleyasına müşahidəçi, 2002-ci ildən isə assosiativ üzvü qəbul edilən Azərbaycan ilə NATO arasındakı münasibətlər praktiki tərəfdaşlığa söykənir. Ölkəmiz ilə qurum arasındakı hərbi əməkdaşlığa diqqət yetirdikdə görmək olur ki praktiki əməkdaşlığın əsas istiqamətlərini müdafiə və təhlükəsizlik sektorunda islahatlar, beynəlxalq əməliyyatlarda birgə iştirak, fövqəladə hallara hazırlıq, təhlükəsizliklə əlaqəli olan elmi və ekoloji məsələlər və ictimai diplomatiya təşkil edir. Son dövrlərdə Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində ciddi addımlar atılıb.

### Azərbaycanlı zabitlər NATO tədbirində...

Qurum ilə Azərbaycan arasındakı 30 illik əməkdaşlıq bu gün də yüksək səviyyədə davam etdirilməkdədir. Belə ki, Azərbaycan Ordusunun zabitləri mayın 22-23-də növbəlilik prinsipinə (bir il Azərbaycanda, bir il Niderlandda) uyğun olaraq, NATO-nun Brunsum Birgə Qüvvələr Komandanlığında "Ekspert heyətinin işçi görüşü"ndə iştirak ediblər. Tədbirdə Beynəlxalq Hərbi Qərargah, SHAPE Qərargahı və Brunsum Birgə Qüvvələr Komandanlığından 8 nümayəndə olmaqla, ümumilikdə, 13 nəfər iştirak edib. Tədbirin keçirilməsində əsas məqsəd 2024-2025-ci illər üzrə əməkdaşlıq fəaliyyətlərinin əlaqələndirilməsi, əməkdaşlıq işinə cəlb olunan azərbaycanlı zabitlərlə şəxsən müzakirələrin aparılması və ümumilikdə, NATO ilə praktiki hərbi əməkdaşlıq prosesində qarşıya çıxan bütün məsələlərin aydınlaşdırılması olub. Görüşdə, eyni zamanda, Komandanlığın rəhbər heyətinin ötən il iyulun 1-5-də Bakıya səfərinin yekun təfərrüatları müzakirə edilib.




Vurğulayaq ki, bu kimi tədbirlər mütəmadi hal almaqdadır - belə ki, bu ilin fevralında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2024-cü il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Brunsum Birgə Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən hərbi həkimlərin iştirakı ilə "Hərbi tibb kursu" keçirilib.

### Sülhə dəstək...

Qurum ilə ölkəmiz arasındakı əməkdaşlıq həm də praktik mahiyyət daşıyır. Belə ki, Azərbaycan NATO-nun müxtəlif sülhyaratma missiyalarında uğurla təmsil olunub, fəallıq nümayiş etdirib. 1999-2008-ci illərdə NATO-nun rəhbərliyi ilə Kosovoda keçirilən sülhməramlı və sülhə dəstək əməliyyatlarına qoşulub. Hərbçilərimiz NATO qüvvələri ilə birlikdə, həmçinin İraqda da sülhməramlı missiya həyata keçiriblər, Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarında iştirak ediblər. Azərbaycan hərbçiləri 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət göstəriblər. Məlum hadisələr zamanı hərbçilərimiz Əfqanıstan paytaxtının hava limanını ən axırıncı tərk edənlərdən olublar. Sülhməramlılarımız hava limanında 120 mindən çox insanın təxliyəsinə töhfə veriblər.

Bu ilin martında NATO Baş katibi Yens Stoltenberqin Bakıya səfəri mühüm məqamlarla yadda qalmışdı. Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşdən sonra mətbuata bəyanatında bildirmişdi ki, Azərbaycan-NATO tərəfdaşlığının 30 ildən artıq davam edən uzun tarixi var: "Tərəfdaşlığımız müsbət olmuşdur. Azərbaycan Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edib. Bu, bizim üçün böyük təcrübə olub. 2021-ci il avqustun axırında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olmuşlar. Bu isə bir daha bizim əməkdaşlığımıza güclü sadiqliyimizi nümayiş etdirir".

### Əməkdaşlıq inkişaf etdirilir

Bəli, Azərbaycan-nın NATO ilə əməkdaşlığı qlobal təhlükəsizliyin təmini istiqamətində ölkəmizin ortaya qoyduğu mövqedir. Ötən 30 il ərzində dövlətimiz hər zaman bu amili ön sıralarda tutub - Azərbaycan dünyanın hər yerində sülhün və əmin-amanlığın bərpası üçün öz gücünü səfərbər edib. Bu gün Cənubi Qafqazda təhlükəsizlik seqmentinin inkişafı üçün çaba göstərən Azərbaycan yeni şəraitdə bunun mütləq şərtlərini formalaşdırıb. NATO-nun aparıcı üzvü olan Türkiyə ilə strateji əməkdaşlığın imzalanması ilə Azərbaycan NATO ilə əməkdaşlıq əlaqələrini daha yüksək bir səviyyəyə çatdırıb. Bu amil Azərbaycan ilə NATO arasında münasibətlərdə, qarşıdakı dövr üçün əməkdaşlıqda xüsusi çalarlar vəd edir. Azərbaycan özünün milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsi olan hərbi təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində əsaslı addımları ilə seçilir. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Yeni mərhələdə silahlı qüvvələrimiz Türkiyə modelinə uyğunlaşdırılır.

***S.İSMAYILZADƏ***

# Avropalı komissardan ölüm təhdidi - Kobaxidzeyə sui-qəsd planlaşdırılır

## "Köhnə qitə" terroru siyasi hesablaşma vasitəsinə çevirir?

Avropanın monopolistik mənafeyinə uyğun gələn normaları "beynəlxalq standart" adı altında qlobal ictimai rəyə yerləşdirməsi ənənəvi hal alıb. Hətta müstəqil dövlətlərin daxili işlərinə qarışacaq qədər siyasi etikadan kənar addımları atmağı özünə rəva bilən, maraqlarını qorumaq xatirinə ayrı-ayrı regionlarda süni kataklizmlər yaratmağa cəhdlər göstərən Avropa hansısa bəlli olmayan səbəblərdən özünün xüsusi imtiyazlarla davranış sərgiləməkdə "azad" olduğunu düşünür. "Demokratiya ölçüləri" Avropa standartı ilə "təyin edilir", "hüquq və azadlıqlar"ın sərhədləri Avropa "dəyərləri" üzərindən müəyyənləşdirilir, lokal anlaşılmazlıqlar və ya mübahisələr Avropanın "təklif və ya təhdidləri" əsasında öz həllini tapır.

Bu "ənənə" daha çox keçmiş sosialist məkanına - Şərqi və Mərkəzi Avropa, Cənubi Qafqaz, Orta Asiya bölgələrinə münasibətdə daha çox özünü biruzə verir. Məsələn, özünü əvvəlcə "dost", "əməkdaş", hətta "tərəfdaş" qismində "təqdim edən", münasibət yaradan Avropa qısa zaman sonra özünü həmin ölkədə hansısa qərarların verilməsində imtiyaz sahibi sayır - halbuki, "köhnə qitə" özünün kifayət qədər çox olan, ksenofobiya, irqi-ayrıseçkilik, neokolonializm kimi "xəstəkliklərindən" əl çəkmək üçün tədbirlər görsə daha yaxşı olardı.

**Aİ-nin "arzuları"...**

Son günlərdə Avropanın "əli ilə" qarışdırılan məkanlardan biri də Gürcüstandır - sirr deyil ki, hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının təqdimatı əsasında parlamentin qəbul etdiyi "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi rəsmi Tbilisi üçün yeni siyasi mənzərə formalaşdıracaq. Siyasi ekspertlərin də bildirdiyi kimi, bu sənəd Gürcüstanda dövlətin təhlükəsizlik amilinin güclənməsinə, dövlətə qarşı hər hansı bir təhdidin yaranmasına mane olacaq qanuni aktlardandır. Beləliklə, qanunun qəbulu ilk baxışdan Gürcüstan dövlətinin mənafeyinə uyğun sayılır. Bəs, onda etirazların bu qədər küiləvi hal alması haradan qaynaqlanır?

Diqqət yetirsək, Gürcüstanda etiraz başlanan gündən Avropa İttifaqına daxil olan dövlətlərin, xüsusilə də Fransanın bu etirazların körükləməsi, daha geniş vüsət alması üçün şərait yaratması nəzərə çarpır. Hətta bəzi məqamlarda ayrı-ayrı Avropa dövlətlərinin parlamentlərinin üzvlərini, rəsmi strukturlarının nümayəndələrinin belə absurd sayılsa da, həmin mitinqlərdə çıxış etdiyinin şahidi olmuşuq - ortada sual yaranır, əgər baş verən etirazlar Gürcüstan cəmiyyətinin özünün etirazıdırsa, Avropa niyə bu qədər əl-ayağa düşüb. Yox, əgər Avropa beynəlxalq güc qismində bu qanunun ləğvini istəyirsə, bunun arxasında nələr yatır?

Qanuna əsasən, bir il ərzində xarici mənbələrdən nağd pul və ya köçürmələr şəklində "qeyri-kommersiya gəlirinin" 20 faizindən çoxunu əldə etmiş istənilən QHT "xarici gücün maraqlarını güdən təşkilat" kimi qeydiyyata alınır. Qanunda konkret olaraq qeyd edilir ki, buraya 20 faizə müqavilələr üzrə əldə edilən kommersiya gəlirləri daxil deyil. Bu kimi qanunların ayrı-ayrı ölkələrdə analogiyaları var - hansı ki, onlarda da "xarici agent" sayılan şəxslərin fəaliyyəti bütün səviyyələrdə hakimiyyət orqanlarında vəzifə tutmaq üçün namizəd olmaq, dövlət vəzifələrində işləmək, seçki komissiyalarının üzvü olmaq və seçki kampaniyalarında iştirak etmək, hətta dövlət sirri tələb edən sahədə fəaliyyət göstərmək, kütləvi tədbirlər təşkil etmək kimi və başqa qadağalarla məhdudlaşdırılıb. Gürcüstanda qəbul edilən qanunun izahat bölümündə isə açıq şəkildə bildirilir ki, bu aktın məqsədi xarici təsirin şəffaflığını təmin etməkdir. Bəs, Avropanın "hürküsü" nədir?

**Avropa komissarından Kobaxidzeyə ölüm təhdidi...**

Gürcüstan hadisələri, eyni zamanda, Avropanın özündə yaşanan bəzi faktlar təhlükəli məsələləri ortaya çıxarır - "köhnə qitə" güc olaraq beynəlxalq münasibətlər sistemindəki yerini qorumaq üçün artıq terrora, şantaja, açıq hədələməyə, hətta silahlı hücuma belə əl atır. Bu açıq faktlarla ortadadır. Belə ki, Gürcüstanın Baş naziri İrakli Kobaxidze şok açıqlama verib - baş nazir bildirib ki, onunla söhbətində Avropa komissarlarından biri onu Slovakiyanın baş nazirinin həyatına qəsd nümunəsi ilə qorxudub. Kobaxidze deyib ki, ölkəsində qəbul olunan "xarici təsir" qanununa görə verilən bu mesajı şəxsən özünə təhdid



kimi qiymətləndirir. "Əminəm ki, həmin qüvvələrin Gürcüstanla bağlı planı bu dəfə də iflasa uğrayacaq. Ölkəmiz mövcud sabitliyi qoruyub saxlaya biləcək və inkişafa doğru addımlamaqda davam edəcək",-deyə baş nazir bildirib.

**Fitso "nümunəsi" və ya niyə məhz Fitso?**

Bəli, artıq kartlar açılır və Avropa özünün əsl simasını ortaya qoyur - çünki müstəqil dövlətlər onların istismarçı tələblərinə qarşı açıq şəkildə etirazlar səsləndirilir. Gürcü baş nazirə edilən təhdidin Slovakiyanın Baş nazirinin aqibəti ilə əlaqələndirilməsi də boşuna deyil - Slovakiyanın Baş naziri Robert Fitsoya edilən sui-qəsdlə bağlı məsələlərə bir az geniş diqqət yetirsək təhdidçi Aİ komissarının "xəbərdarlığının" ştrixlərini görə bilərik. "İmperialist Avropa" özünün "dünya hegemoniyası" ansamblındakı qeyri-adekvat addımları və davranışları ilə hər kəsi cana yetirdiyinin fərqindədir - hətta öz müttəfiqləri belə həmin siyasi cinahın hədəsi altında yaşamaqdan cana doyub. Təsadüfi deyildi ki, Slovakiyanın Baş naziri Robert Fitso Azərbaycanda səfərdə olanda bildirmişdi ki, Avropa İttifaqının üzvü olan ölkənin nümayəndəsi kimi deyə bilərəm ki, Avropa İttifaqı ara-sıra digərlərinə təlimat verməyi xoşlayır: "Mən isə siyasi təcrübəmdə heç vaxt heç bir ölkənin daxili işlərinə qarışmamağa üstünlük verirəm".



Gürcüstanın baş nazirinə edilən hədə, Slovakiyanın baş nazirinə atılan güllə Avropanın fərqli - liberal, ədalətli düşüncəyə göstərdiyi "təpkidir". Yəni müstəqil fikrə malik, öz ölkəsinin maraqlarını önə çəkən insanlar Avropanın açıq təhdidi altındadır.

**Eyni qanun Fransaya olar, Gürcüstana olmaz...**

Gürcüstan məsələsinin altında yatan maraqlar başqa məsələdə də özünün ikili standartını ortaya qoyur. Belə ki, bu günlərdə oxşar qanun Fransada da qəbul olunub. Fransa Senatı xarici müdaxilənin qarşısının alınmasına dair 4 maddədən ibarət qanunu qəbul edib - bununla bağlı məlumat Senatın saytında yerləşdirilib. Həmin məlumatda bildirilir ki, qanunun birinci maddəsində xarici güclərin Fransanın ictimai həyatında iştirak edən aktorlarının qeydiyyatı, uçotunun aparılması tələb edilir. Qanunun ikinci maddəsinə görə, hökumət ildə bir dəfə parlamentə xarici təhdidlərlə bağlı hesabat verməlidir. Üçüncü maddə xüsusi xidmət orqanlarının səlahiyyətlərinin artırılmasını, texniki imkanları genişləndirməyi, həmçinin rəqəmsal məlumatların avtomatik emalını nəzərdə tutur.

Dördüncü maddədə xarici təsirlə mübarizə üçün monetar qanunvericiliyin dəyişdirilməsi, hesabların dondurulması prosedurunun əhatə dairəsinin genişləndirilməsi və maliyyə sanksiyaları nəzərdə tutulur. İlk baxışdan bu qanun demək olar ki, Gürcüstandakı qanunun bir az başqa, amma motiv etibarı ilə analogiyasıdır. Bəs, necə olur ki, eyni mahiyyət Gürcüstan üçün keçərli olmadığı halda, Fransa üçün məqbuldur? Demək ki, burada da "fransız barmağı" özünü göstərir. Təsadüfi deyil ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinə veto qoyan Gürcüstan prezidenti Salome Zurabişvili bir neçə gün əvvəl fransalı həmkarı Emmanuel Makronu mayın 26-da-Gürcüstanın Müstəqillik Günündə ölkəsində gözlədiyini bəyan edib. Niyə məhz Makron? Bu sualın cavabı da özündə böyük maraq yaradır...

***P.İSMAYILOV***

# Ermənistanda proseslər əks istiqamət alır

## Kilsənin siyasi böhran yaratmaq istəyi ifşa edilir



Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində davam edən proses ötən ilin dekabrından yeni yön alıb. İki ölkənin müvafiq delimitasiya və demarkasiya komissiyalarının iştirakı ilə keçirilən görüşlər nəticə etibarı ilə bir sıra razılaşmalar üçün münbit zəmin formalaşdırdı - beləliklə, dövlət strukturlarının birgə açıqlamasının, eyni zamanda, bir sıra məsələlərdə razılaşmaların şahidi olduq. Xüsusilə, Qazax rayonu istiqamətində işğal altındakı Azərbaycan kəndlərinin qaytarılması, delimitasiya ilə bağlı ilkin addımların atılması gələcək üçün də bir sıra mühüm ümidlər formalaşdırır.

Təbii ki, bu razılaşmaların əldə edilməsi, qarşılıqlı anlaşma mühitinin formalaşdırılması, ən əsası sülhlə bağlı ümidlərin yaranması bölgədə destruktiv maraqları olan bəzi xarici güclərin "hesabları" ilə uyğun gəlmir. Nəticə etibarı ilə illərlə Ermənistanı qeyri-konstruktiv mövqe sərgiləməyə "həvəsləndirən" Fransa kimi ölkələr hazırkı şəraitdən narahatlıq keçirir - yeni mərhələdə ikili təmasların uğurla nəticələnməsi Fransanın bölgədə Ermənistan üzərindən "yürütməyə çalışdığı" bütün siyasi addımları bloklayacaq. Beləliklə də, Cənubi Qafqazda yeni inkişaf perspektivləri formalaşacaq. Bunun qarşısını almaq üçün isə xarici maraqların təsiri altında olan siyasi qüvvələr yenidən qızışdırılır, onların əli ilə ölkədə siyasi böhran, hətta qarşıdurmalar yaradılmasına çalışılır.

**Müxalifətin destruktiv fəaliyyəti...**

Təsadüfi deyil ki, bu fakt elə erməni parlamentarilər tərəfindən də təsdiqlənir. Məsələn, mayın 23-də Ermənistan parlamentində keçirilən ənənəvi brifinqdə hakim "Vətəndaş sazişi" partiyasının parlament fraksiyasının katibi Artur Ovannisyan bildirib ki, bəzi müxalifət deputatlarının açıqlamaları sərhəddə yeni eskalasiya riskləri yaradır. Onun sözlərinə görə, söhbət Seyran Ohanyan, Qarnik Danielyan və Hayk Mamicanyandan gedir. Onlar delimitasiya və demarkasiya prosesini yanlış və vaxtından əvvəl hesab edərək onu aktiv şəkildə tənqid edirlər.

"Bu, Ermənistan üçün ciddi eskalasiya riskləri yaradır. Nə baş verə bilər? Bunu özünüz də bilirsiniz", - deyə Ovannisyan qeyd edib.

Ermənistan parlamentinin sədri də müxalifət deputatları ilə bağlı narazılıqlarını səsləndirib. Alen Simonyan Ermənistanda yerli müxalifətin niyə qanunların az qala 90 faizinin baxılmasında iştirak etmədiyi və vaxtaşırı parlamentdə hökumət saatını boykot etməsini belə şərh edib: "Müxalifət parlamentin əksər iclaslarında iştirak etmir, daimi komissiyaların sədr və müavinləri vəzifələrinə namizədlər irəli sürmür, bu komissiyalarda fəaliyyət göstərmir. Amma parlamentə gəlir, qeydiyyatdan keçir və qanunlara səs verir, əleyhinə çıxırlar və ya bitərəf qalırlar. Təxmin edin niyə? Cavab sadədir: çünki parlamentdə bir iclasda iştirak etmədiyin halda, maaşdan 24 min dram tutulur. Bu, həqiqətən də mövcud olmayan müxalifətin ən yaxşı nümunəsidir".

**Kilsə oğurluqla məşğuldur...**

Hazırda daha çox diqqəti cəlb edən "cinah" isə Erməni Apostol Kilsəsidir. Baqrat Qalstanyanın "başçılığı" ilə başladılan və sülhə qarşı olan "etirazların" arxasında "xarici əl"in olması faktı artıq bəlli fakta çevrilib - xüsusilə, bu etirazlarla bağlı Avropanın, konkret olaraq Fransanın mövqeyi onu deməyə əsas verir ki, Paris bölgədəki qeyri-kosntruktiv planlarından əl çəkməyib. Beləliklə də, hər zaman siyasi oyunların əsasında yer alan, hətta bu oyunların "qurucusu" olan erməni kilsəsi yenidən "aktivləşdirilib". Bir müddət öncə hətta "siyasi qüvvələri birləşdirmə" funksiyasını üzərinə götürməyə "hazır olduğunu" dilə gətirən kilsə və onun başçısı II Qaregin baş nazir Nikol Paşinyana qarşı ədavətini həm də sərhədlərin delimitasiyası üzərindən manipulyasiya etməyə çalışır.



Bu isə onu göstərir ki, erməni kilsəsi hər zaman olduğu kimi terror və təhdid yaratmaq üçün hazır vəziyyətdədir. Kilsənin qarşıdurmaları alovlandırmağa istiqamətlənən kursu isə artıq ifşa olunur - erməni deputatlar açıq şəkildə kilsəni siyasi böhrana yol açmaq üçün çalışdığını deyirlər. Belə ki, "Mülki müqavilə" fraksiyasının katibi Artur Ovannisyan bildirib ki, Erməni Apostol Kilsəsinin dövlət üçün faydalı ola biləcək istifadəsiz sahələri var, kilsə bununla məşğul olmalı, maliyyə vəsaitlərinin kölgədən çıxarılmasına şərait yaratmalıdır. Ovhannisyan kilsəni oğurluqda ittiham edib: "Bizim anlayışımıza görə xristianlıq oğurluq etməmək, korrupsiyada iştirak etməməkdir. Kilsə bu məntiqi rəhbər tutmalı və korrupsiyanın mümkün olduğu bir vəziyyəti yaratmamalıdır",-deyə o bildirib.

Qeyd edək ki, Ermənistanda artıq proses əks istiqamətdə cərəyan etməyə başlayıb. Kilsə bütün cəhdlərinə, aksiyalarına, çağırışlarına baxmayaraq Paşinyanı devirə bilmədi - bu isə kilsənin böyük və açıq fiaskosu ola bilər. Zaman keçdikcə, əsl reallıqlar cəmiyyətə aşılandıqca isə insanların bu "etirazlara" marağı da azaldı - beləliklə, Ermənistanda aksiyalar da səngidi, keşiş Baqrat Qalstanyanın ətrafında toplaşanlar dağıldılar. İndi isə Paşinyan və tərəfdarları kilsənin iç üzünü cəmiyyətə göstərmək üçün fəal ifşaetmə kampaniyasına başlayıblar.

***SADİQ***

# Azərbaycan ən az xarici borca malikdir



2024-cü il 1 aprel tarixinə Azərbaycanın xarici dövlət borcu 5,5 milyard dollar ekvivalentinə bərabər olub. Hazırda 5 milyard dollar həcmində borc portfeli ÜDM-in 10 faizdən də aşağıdır. Ona görə də Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələr sırasında yer alır. Azərbaycan hazırda regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 10 faizdən də aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir. Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir.

Ölkəmzi xarici borc yükünə görə, region və dünya ölkələri arasında daha əlverişli və sabit mövqeyə malikdir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2024-cü ilin birinci rübündə 10,9 milyard dollar olmaqla ÜDM-in 50,6 faizini təşkil edir.

Borcun region ölkələri üzrə nisbətində də Azərbaycan ən qənaətbəxş vəziyyəfə malikdir. Məsələn, Ermənistanın hazırda Ermənistanda adambaşına düşən borcun həcmi 3,6 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Ermənistan öz maliyyə potensialının aşağı olması səbəbindən büdcə xərclərini yerinə yetirmək üçün əlavə borclanmalara məcbur olur. 2024-cü ildə hökumət öz sosial-iqtisadi öhdəliklərini icra etmək üçün kənardan əlavə olaraq 1,4 milyard dollar borc alıb. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycanla nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43%-dən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 540 dollardır.

Yeri gəlmişkən, Hazırda Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin starteji valyuta ehtiyatlarının həcmi 68 milyard dolalr olmaqla borcu 12,4 dəfə üstələyir. Digər region ölkələrindən Ermənistanda rezervlərin həcmi 5,3 milyard dolar olmaqla borcdan 2 dəfə azdır. Gürcüstanın strateji ehtiyatlarının həcmi isə 13,8 milyard dolar olmaqla təxmini olaraq borcla eyni məbləğə malikdir.

Göründüyü kimi Azərbaycanın güclü milli təhlükəsizlik yastığı xarici borcu tamamilə bağlamağa imkan verir. Azərbaycan öz rezervlərinin cəmi 8 faizini xərcləməklə xarici borcu sıfırlaya bilər.

Xarici borcla bağlı digər bir məqam beynəlxalq bazarlarda yeni borc alma imkanlarının səmərəliliyi və ölkənin reytinqi ilə bağlıdır. Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.



Maliyyə naziri Samir Şərifov bildirib ki, xarici dövlət borcumuz kifayət qədər aşağı səviyyədədir və yeni borclanmaya getmək ölkəmiz üçün hansısa qayğı yarada biulməz. Hökumət xarici valyutada mühafizəkar borclanma siyasəti aparmaqda qərarlıdır, ancaq əlavə borc cəlb etmək üçün də müxtəlif ssenarilər nəzərdən keçirilir. Bununla əlaqədar xarici dövlət borcunun təxminən 10 milyard dollar səviyyəsinə qədər artırılması istisna olunmur. Əsas məqsəd ölkəmiz qarşısında duran böyük infrastruktur layihələrinin, dövlət əhəmiyyətli ümdə infrastruktur planlarının icrasıdır ki, bu sahəyə daxili mənbələrdən yönəldilən mənbələrlə yanaşı, əlavə resurslara ehtiyac vardır.

**Əlavə borc hansı məqsədlərə xidmət edə bilər?**

Ölkəmizin qarşısında duran müəyyən çağırışların, layihələrin həyata keçirilməsi prizmasından maliyyə kredit təşkilatları ilə əməkdaşlığı bir qədər genişləndirərək kreditlərin cəlb edilməsi məqsədəuyğun hesab olunub. Bunun da başlıca səbəbi azad edilmiş ərazilərin bərpa və quruculuğu işlərinin daha da sürətləndirilməsi, meydana çıxan zəruri infrastrukturların daha tez yaradılaraq istifadəyə verilməsi və bu bölgənin iqtisadi resurslarını iqtisadi dövriyyəyə cəlb edilməsinin tezləşdirilməsidir. Nəticədə bu siyasət daha səmərəverici olmaqla həmin bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyasını sürətləndirməklə iqtisadi inkişafa töhfə verəcək. Həmin bölgədən əldə edilən milli gəlirlərin dəyəri həmin borcun qısa zamanda qaytarılmasını təmin edilməsində də həlledici rol oynayacaq. Yəni alınan borc Qarabağ və Şərqi-Zəngəzurun qısa bir zamanda dirçəldilməsinin təmin edilməsində köməkçi rol oynamaqla bu bölgədə iqtisadi hərəkətliliyi tezləşdirəcək, insanların öz yurdlarına geri dönüşü daha geniş miqyas alacaq, daha qısa zamanda qayıdış mümkün olacaq. İnsanlarım məşğulluq imkanları daha dayanıqlı və təminatlı olacaq. Beləliklə, bu bölgədə yaranan əlavə dəyərlərin həcmi bir neçə il ərzində alınan borcu bir neçə dəfə üstələyəcək. Ona görə də, yeni borclanma gələcək reinteqrasiyanın daha tez və şevik formada həllinə kömək edəcək, azad ərazilərin iqtisadi resurslarının ixrac imkanlarını sürətləndirəcək.

Beləliklə, Azərbaycan xarici borclanmanı fiskal dayanıqlığın tərkib hissəsi kimi nəzərdən keçirir və səmərəlilik prinsipini əsas götürür və bu strategiya əsasən iqtisadi imkanların yaxşılaşmasına xidmət edir.

*E.CƏFƏRLİ*

# Lui Bonu regionda səfərdədir




## ABŞ Cənubi Qafqazda sülhün təmin olunması üçün təşəbbüslərini davam etdirir

*Nardar BAYRAMLI*

Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması, o cümlədən Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması məsələsi beynəlxalq birliyin diqqət mərkəzindədir. Xüsusilə, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi bölgənin strateji gündəliyinin və siyasi gündəminin aktual mövzusudur. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması, qarşıdurma və təhdidlərin istisna olunması üçün sülh müqaviləsinin imzalanması vacibdir.

44 günlük Vətən müharibəsində parlaq qələbə qazanan Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratmış oldu. Müharibədə Ermənistanı ağır məğlubiyyətə uğratmasına baxmayaraq, Azərbaycan dövləti bölgənin gələcəyi naminə qarşı tərəfə beynəlxalq hüquq normalarına əsaslanan sülh sazişini imzalamağı təklif edib. Uzun müddətdir ki, tərəflər sülh sazişi layihəsini müzakirə edir. Sonuncu dəfə bununla bağlı xarici işlər nazirləri arasında görüş 10-11 may tarixlərində Qazaxıstanın Almatı şəhərində gerçəkləşib.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində bir sıra beynəlxalq aktorlar da vasitəçilik təşəbbüs ilə çıxış ediblər. ABŞ da bu baxımdan bir sıra təşəbbüslərlə çıxış edib. Təsadüfi deyil ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh sazişi layihəsinin müzakirəsi ilə bağlı üç görüşü ABŞ-da baş tutub. Bundan əlavə, ABŞ rəsmiləri mütəmadi olaraq, Azərbaycana və Ermənistana səfərlər edir, müxtəlif təşəbüsslərlə çıxış edirlər. Yeri gəlmişkən, hazırda ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono bölgədə səfərdədir. İlk olaraq İrəvanda olan Lui Bono Baş nazirin müavini Mqer Qriqoryan, xarici işlər naziri Ararat Mirzoyan və digər rəsmi şəxslərlə görüşüb. Görüşlədə əsas müzakirə mövzusu Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması olub. ABŞ rəsmisi Azərbaycanda da səfərdə olacaq.

Xatırladaq ki, ötən həftənin sonlarında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də ABŞ-da səfərdə olarkən bu məsələlər diqqət mərkəzində olub. Belə ki, Hikmət Hacıyev ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanla görüşüb. Bu barədə Prezidentin köməkçisi "X" səhifəsindəki paylaşımında bildirmişdi: "Ceyk Sallivanla çox məzmunlu görüş keçirdik. Biz ölkələrimiz arasında əməkdaşlığı və əlaqələrimizin gələcək inkişafını nəzərdən keçirdik. Həmçinin regional və qlobal məsələlər müzakirə edilib. Biz, həmçinin regionda sülhün bərqərar olması və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ilə bağlı fikir mübadiləsi apardıq". Səfər çərçivəsində Hikmət Hacıyev həmçinin, ABŞ-ın dövlət katibinin siyasi məsələlər üzrə müavini Con Bass, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin birinci müavini Yuri Kim və dövlət katibinin demokratiya, əmək və insan hüquqları üzrə köməkçisi Robert Cilkristlə də görüşlər keçirmişdi.

Ümumiyyətlə, 2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan qarşıdakı mərhələdə regionda təhlükəsizlik arxitektirasının formalaşması istiqamətində addımlar atır. Bunu müşahidə edən dünya birliyi məsələnin mahiyyətini də obyektiv şəkildə dəyərləndirir. Azərbaycanın sülh üçün yaratdığı pozitiv imkanlar mühüm məqamlardan xəbər verir. Təbii ki, məslənin real həllində maraqlı olan tərəflər həm də bu sülhün əbədiliyi və möhkəmliyi üçün səy göstərməlidir. Bu gün Azərbaycan bölgənin yeni inkişaf mərhələsi naminə məhz dayanıqlı və əbədi sülhü təbliğ edir. Bütün beynəlxalq aktorlar, o cümlədən da ABŞ anlayır ki, Azərbaycan Cənubi Qafqaz regionunun lideri və əsas siyasi-iqisadi oyunçusudur. Yeni dönəmdə Cənubi Qafqaz regionu ilə münasibətlərin sıxlaşdırılması, pozitiv gündəliyə töhfə verilməsi birbaşa Azərbaycanın iştirakı ilə reallaşır. Bu isə qarşılıqlı tərəfdaşlığı daha da gücləndirən amil kimi çıxış edir.

# Azərbaycan Dünya İqtisadi Forumunun hesabatında irəliləyib

Azərbaycan Dünya İqtisadi Forumu tərəfindən dərc edilən Səyahət və Turizmin İnkişafı indeksinə əsasən əvvəlki hesabatla müqayisədə 7 pillə irəliləyərək 119 ölkə arasında 56-cı yerdə qərarlaşıb. MDB ölkələri arasında ən yüksək nəticəyə malik 2-ci ölkə kimi Azərbaycanın 4 komponent üzrə göstəricilərdə mövqeyində əhəmiyyətli dərəcədə irəliləmə müşahidə olunub.

2023-cü ilin sonuna təqdim edilən məlumatlar əsasında hazırlanan hesabatda "Uyğun Mühitin Mövcudluğu" komponenti üzrə biznes mühiti, təhlükəsizlik, sağlamlıq və gigiyena, insan resursları və əmək bazarına dair göstəricilərdə, həmçinin "Səyahət və Turizm Siyasəti və Uyğunluq Şərtləri" komponenti üzrə beynəlxalq açıqlıq və qiymət rəqabətliliyi göstəricilərində, "Səyahət və Turizm Tələbinə Təsir Edən Amillər" komponenti üzrə mədəni resurslara dair göstəricidə və "Səyahət və Turizmin Dayanıqlılığı" komponenti üzrə ekoloji davamlılıq və sosial-iqtisadi dayanıqlılıq göstəricilərində yüksəlmə qeydə alınıb.




Alt-indikatorlar üzrə səyahət və turizmə dair statistik məlumatların beynəlxalq qurumların məlumat bazalarına mütəmadi olaraq ötürülməsinə dair göstərici üzrə Azərbaycan 2021-ci ildə olduğu kimi bu il də mümkün ən yüksək nəticə ilə 1-ci pillədə qərarlaşıb. Bununla yanaşı, Qlobal Terrorizm İndeksi üzrə nəticələrə əsasən Azərbaycan əvvəlki hesabat üzrə mövqeyini 34 pillə yaxşılaşdıraraq ən təhlükəsiz ölkələr sırasında 1-ci pilləyə yüksəlib. Əlavə olaraq, gəlmə turizmində mövsümilik amili üzrə 39 pillə, illik səyahət və turizm məlumatlarının əhatəliliyi göstəricisi üzrə 28 pillə, Ümumdünya İrs Siyahısına daxil olan təbii nümunələrin sayına görə 29 pillə, rəqəmsal ödənişlər və 3G mobil şəbəkənin əhatə dairəsi göstəricilərində isə müvafiq olaraq 18 və 32 pillə irəliləyiş qeydə alınıb.

Hesabatda, həmçinin qısamüddətli icarəyə verilən evlərin sayının qonşu ölkələrlə müqayisədə daha az olması, səyahət və turizm üzrə kapital qoyuluşunun, ikitərəfli hava xidmətləri üzrə digər ölkələrlə imzalanan sazişlərin sayının, biomüxtəliflik və xüsusi mühafizə olunan təbiət ərazilərinin, ətraf mühitə dair ratifikasiya edilən müqavilələrin sayının artırılması ilə bağlı çağırışlar müəyyənləşdirilərək Azərbaycanın turizm sektorunda təkmilləşdirilməyə ehtiyac duyulan göstəricilər kimi təqdim olunub.

Qeyd edək ki, Səyahət və Turizmin İnkişafı İndeksində Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində 2022-ci ilin oktyabr ayında aidiyyəti dövlət qurumları və biznes subyektlərindən ibarət "Turizmin inkişafı" işçi qrupu yaradılıb. Ötən müddət ərzində işçi qrupu ölkənin sözügedən indeksdə mövqeyinin yaxşılaşdırılması istiqamətində dövlət və özəl qurumlarının əlaqələndirilmiş fəaliyyətini təşkil edib və müvafiq Fəaliyyət Planı icra olunub. Hazırda işçi qrupunun müasir çağırışlara və hədəflərə əsaslanan yeni Fəaliyyət Planının layihəsinin rəsmiləşdirilməsi aparılır.

# Makron Yeni Kaledoniyaya niyə gedib?

## Fransa prezidentinin səfəri bölgədə sabitlik yaratmayacaq

*N.BAYRAMLI*

Özünü demokratiyanın "beşiyi" kimi təqdim etməyə çalışan Fransanın müxtəlif xalqlara qarşı tarixən müstəmləkəçilik və işğal siyasəti həyata keçirdiyi sirr deyil. Yaşadığımız XXI əsrdə belə özünün neokolonialist niyyətlərindən əl çəkməyən rəsmi Paris hələ də bir çox xalqları istismar altında saxlayır və bu xalqların azadlıq mübarizəsini boğmağa çalışır. Zaman keçdikcə isə Fransanın bu işğalçı siması daha çox ifşa edilir və rəsmi Parisin xarici və daxili siyasətində ciddi böhran yaşaması faktı ortaya çıxır. Artıq istismar edilən xalqlar açıq şəkildə azadlıqlarını tələb edirlər və Fransa keçmiş müstəmləkələrindən qovulur. Həmin bölgələrdə Parisə qarşı etiraz aksiyaları səngimir, Yelisey sarayına qarşı çıxışlar, narazılıqlar günü-gündən daha da artır. Niger, Qabon və s. bölgələrdən qovulan Fransaya qarşı etirazların artdığı keçmiş müstəmləkələrdən biri də Yeni Kaledoniyadır. Bu bölgədə Fransa müstəmləkəçiliyinə qarşı etiraz aksiyaları artıq davamlı xarakter alıb və hər gün daha da güclənir. Yeni Kaledoniyada son etiraz aksiyalarının əsas səbəblərindən biri kənardan gətirilən insanlara yerli kanak xalqının ziyanına olaraq səsvermə hüququnun verilməsidir. Belə bir şəraitdə, rəsmi Paris bölgəyə ordu və jandarm qüvvələri göndərib.

Ordu və polis göndərildikdən sonra Fransa Prezidenti Emmanuel Makron da Parisdən 17 000 kilometr məsafədə yerləşən Yeni Kaledoniyaya səfər edib. Onu daxili işlər naziri Jerald Darmanen, müdafiə naziri Sebastian Lekornü, dənizaşırı ərazilər naziri Mari Qevnu müşayiət edib. Makron bildirib ki, onun əsas "prioriteti" asayişin bərpa olunmasıdır. Yalnız bu halda arxipelaqda fövqəladə vəziyyət rejimi aradan qaldırıla bilər. Fransa prezidenti seçici siyahıları məsələsində geri addım atılmayacağını, artıq qəbul edilmiş qanunların dəyişdirilməyəcəyini vurğulayıb.



Makron deyib ki, Fransız polisi və jandarm qüvvələri lazım olduğu müddətə qədər Yeni Kaledoniyada qalacaq. "Le Monde" qəzetinin məlumatına görə, E.Makron Fransa Ali Komissarlığının Yeni Kaledoniyadakı ofisinə səfəri zamanı arxipelaqa göndərilən hüquq-mühafizə orqanları əməkdaşlarının sayının 3 min nəfərə çatdırılacağını bildirib və əlavə edib ki, onlar hətta Olimpiya və Paralimpiya Oyunları zamanı da orada qala bilərlər. Əlavə edib ki, yerli ictimai-siyasi xadimlər barrikadaların götürülməsinə çağırsalar, fövqəladə vəziyyət uzadılmayacaq.



Məlumdur ki, Fransa hakimiyyəti adada etnik tərkibi köklü surətdə dəyişməyə çalışır. Hazırda Yeni Kaledoniyanın əhalisi təxminən 300 min nəfərdir. Onun 40 faizi, yaxud 112 mini kanaklardır. 1998-ci ildə imzalanmış müqavilələrə əsasən, Fransa ərazinin siyasi muxtariyyətini genişləndirməyə və yerli seçkilərdə yalnız o vaxt Yeni Kaledoniyada yaşayanlara səsvermə hüququ verməyə razılaşdı. Ancaq 1998-ci ildən bəri 40 minə yaxın Fransa vətəndaşı Yeni Kaledoniyaya köçüb. 2018-ci və 2020-ci illərdə keçirilmiş birinci və ikinci referendumda Parislə əlaqələrin saxlanmasının tərəfdarları cüzi səs çoxluğu əldə edib, üçüncü dəfə isə müstəqilliyi dəstəkləyən partiyalar hakimiyyətin bu referendumu təxirə salmaq istəmədiyi üçün səsverməni boykot etmək qərarına gəldilər. Fransa tələm-tələsik, koronavirus pandemiyası dövründə üçüncü referendumu keçirdi.

Hazırkı etirazlara səbəb olan qanuna əsasən, 10 il Yeni Kaledoniyada yaşayan Fransa sakinlərinə səsvermə hüququ veriləcək. Bu isə adanın yerli əhalisini, kanakların narazılığına səbəb olub. Onlar bundan sonra siyasi təsir imkanlarının azalacağından narahatdırlar. Ekspertlər hesab edirlər ki, yeni qanun qəbul olunduqdan sonra seçicilərin sayı 14,5 faiz Fransadan gətirilənlərin hesabına artacaq. Bu perspektiv arxipelaqın Fransadan müstəqilliyini böyük əksəriyyəti ilə dəstəkləyən kanakları narahat edir. Onlar hesab edirlər ki, islahat onların seçki və referendumda çəkisini azalda, xalqını marginallaşdıra, bununla da onları adanın taleyini təyin etmək imkanından məhrum edə bilər. Adada yaranmış etnik vəziyyətə əsasən, Fransa orada keçirəcəyi mümkün istənilən ümumxalq səsverməsi kampaniyasında qalib gələcək.

Makronun Yeni Kaledoniyaya səfəri və səfər zamanı verdiyi açıqlamalar onu göstərir ki, Paris müstəmləkəçi siyasətindən əl çəkmək niyyətində deyil. Ümumiyyətlə, neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirməkdə maraqlıdır.

Bu gün Yeni Kaledoniyada baş verənlər məhz Parisin müstəmləkə siyasətinə qarşı açıq mübarizədir. Maraqlıdır ki, bu məsələdə Fransa nəşrləri hakimiyyətlə eyni mövqe nümayiş etdirir. Bu ölkədə heç bir media qurumu kanakların azadlıq mübarizəsindən, dinc sakinlərin öldürülməsindən yazmır və ya yaza bilmir. Acınacaqlı hal odur ki, Yeni Kaledoniyada baş verən hadisələrdə Fransa ordusu 10-a yaxın etirazçını qətlə yetirib, təxminən 200 nəfər isə yaralanıb. Həbs olunanların da sayı çoxdur. Fransa hökuməti ordunun Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək üçün bölgədə "Tik-Tok" sosial şəbəkəsini bağlayıb. Bütün bunların fonunda Makronun adaya səfəri vəziyyəti yaxşılığa doğru dəyişdirməyəcək.

# Regionların sosial-iqtisadi inkişafı...



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

İqtisadiyyatımızın dayanıqlı və davamlı inkişafında regionlarının sosial-iqtisadi inkişafı mühüm rola malikdir. Regionların inkişafının təmin edilməsi sayəsində milli iqtisadi inkişafı təmin etmək də mümkü olur. Dünyanın bir sıra iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində regionların sosial iqtisadi-inkişafı ilə bağlı yürüdülən siyasət diqqət mərkəzində saxlanılır. Azərbaycan da bu siyasətə xüsusi önəm verir və bu istiqamətdə bir sıra məqsədli dövlət roqramları qəbul edib, kompleks tədbirlər həyata keçirib.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı strategiya hazırda azad edilmiş əraziləri də əhatə edir və dövlət dəstəyi tədbirləri bu bölgədə icra oluna müxtəlif infrastruktur layihələrində özünü göstərir. Bir zamanlar ermənilər tərəfindən dağıdılmış, viran qoyulmuş həmin rayonların dirçəldilməsi hökumət üçün əsas prioritet təşkil edir. Həmin ərazilərdə müxtəlif obyektlərin tikilib istifadəyə verilməsi, yenilərinin təməlinin qoyulması ilə yanaşı, yeni avtomobil magistrallarının, dəmir yollarının, hətta beynəlxalq səviyyəli hava limanlarının istifadəyə verilməsi, yenilərinin də inşası bu kompleks tədbirlərin tərkib hisəsidir.



## Hansı işlər görülüb?

**İqtisadi qüdrətimizin göstəricisi...**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşərkən bildirib ki, yerli və xarici investisiyaların həcmi artır və bu da həmin bölgənin inkişafını təmin edilməsində mühüm rol oynayır. Yaxın illərdə bu tədbirlər sayəsində ölkəmizi iqtisadi baxımdan mühüm yerlərdən birinə çevirəcək: "Hazırda Qarabağda infrastruktur layihələr üzrə işlər davam etməkdədir. İki aeroport artıq təhvil verilib, üçüncü aeroport isə tikilib qurtarır. Bütün bunlar Qarabağda turizmin inkişafına böyük töhfə verəcək. Bu, həm də Azərbaycanın iqtisadi qüdrətini göstərir".

**Ən böyük problem minalardır...**

V.Bayramov qeyd edib ki, bəzi problemlərin kökündən həll olunması üçün müəyyən vaxt və vəsait lazımdır: "İnsanların doğma yurd-yuvasına böyük qayıdış layihəsini həyata keçirmək üçün ilk öncə onlara yaşayış məntəqələri tikmək lazımdır. Ondan başqa iş yerləri açılmalıdır. Hazırda Qarabağda planlı şəkildə işlər gedir. Burda kənd təsərrüfatı obyektləri, gələcəkdə emal müəssisələri yaradılacaq. Ən böyük problem hazırda minalardır. Təbii ki, vaxt itirmədən gündəlik işlər görülür. Amma yenə də məlumatlar gəlir ki, mülki insanlar, mütəxəssislər mina partlaması nəticəsində xəsarət alıb, həyatını itirib. Bizim əsas məqsədimiz kənd təsərrüfatını regionlarda sürətlə inkişaf etdirməkdir ki, emal zavodları ora köçsün. Düşünürəm ki, bu baxımdan kiçik və orta sahibkarlığın, fermer təsərrüfatının inkişafının böyük rolu var. Regionlarda inkişaf gedir. Amma inkişafın artım tempi bizi qane etmir. Ona görə də, dövlətin birmənalı siyasəti bu templəri sürətlə artırmaqdır. Məsələn, bütün makroiqtisadi göstəricilərimiz artım tempi ilə yüksəlir. Bu, birmənalıdır və o deməkdir ki, Prezidentin iqtisadi siyasəti tamamilə düzgündür və uğurludur. Biz daha çox kiçik və orta sahibkarlığın inkişafına önəm veririk. Əsas diqqət həmin sahənin inkişaf etdirilməsinə yönəlməlidir və ÜDM-də payının artması təşviq olunmalıdır. İnkişaf etmiş ölkələrdə, o cümlədən Yaponiyada, ABŞ-da, Avropada ümumi daxili məhsulda kiçik və orta sahibkarlığın ümumi çəkisi 55%-i keçir. Bu, İspaniyada 65%-dir. Ona görə də bizim ölkədə də orta sahibkarlığın milli məhsulda dəyərinin artırılmasına nail olmaq lazımdır. Bu siyasət həm də işsizliyin səviyyəsinin daha da aşağı salınmasında mühüm rol oynaya bilər".

**Nəqliyyat layihələrində səmərəli mexanizm**

Deputat qeyd edib ki, ölkədə sənayenin bütün sahələrinin inkişaf etdirilməsi üçün mühüm addımlar atılır: "Təbiidir ki, yaşıl energetikanı da inkişaf etdirəcəyik. Yaşıl iqtisadiyyat ilə bütün dünyada innnovativ olan texnologiyaları daha çox tətbiq edəcəyik. Burda əsas qeyri-neft və qaz sektorunun həcmini artırırıq. Bunun ixracı bizə daha çox maraqlıdır. Ən azından Azərbaycanda satılan əsas qida, kənd təsərrüfatı və qida məhsullarını təxminən 85%-ni istehsal edə bilirik. Nəqliyyat iqtisadiyyatımız da inkişaf edir. Bunun üçün bizdə kifayət qədər imkan var. İstər dəmir yolu nəqliyyatı, istərsə də Xəzər dənizindən istifadə baxımından geniş imkanlara sahibik. Bizim iqtisadi nəqliyyat layihələrində səmərəli bir mexanizm var. Xəzər dənizində beynəlxalq standartlarla limanlarımız var. Bunlardan da istifadə edirik. Günəş, külək və su elektrik enerjilərinin alınması sahələrində üstünlük əldə edə bilərik. Sənayenin bütün sahələri istər dağ-mədən, tikinti materialları ehtiyatları Günəş və külək enerjisinin alınması baxımından bölgə böyük iqtisadi potensiala malikdir".

# Əfsanəvi Vinni Cons - futboldan filmə

Gəncliyində məşhur futbolçu, sonralar isə qorxulu filmlər kralı, qalmaqal ustası olmuş birisi haqda oxumaq istərdinizmi? İslaholunmaz çılğın xarakterə malik, harada olsa qalmaqal yaradan bu adam dünya şöhrətli futbolçu və aktyor Vinni Consdur.

Futbol karyerasının ortalarında, 21 yaşında ikən dostları ilə birgə ad gününü qeyd etdiyi məclisdə kütləvi dava törədib, təkcə başından 61 yara alaraq xəstəxanalıq olmuşdu.

Hələ futbol oynayarkən amansız və kobud xarakter nümayiş etdirən Vinni qorxulu filmlər çəkən rejissorların gözündən yayınmamışdı.

Vinsent Piter Cons (Vinni) 1965-ci ildə İngiltərənin Uotford şəhərində inşaatçı ailəsində anadan olub. Məktəbli vaxtlarından futbola maraq göstərmiş, 9 yaşında ikən uşaq futbol klublarında çıxış etmişdi. Fiziki göstəriciləri ona özündən yaşca böyüklərlə eyni komandada oynamağa imkan verirdi. Vinni yeniyetmə bir futbolçu kimi öz tay-tuşları arasında güclü zərbələri ilə seçilirdi.

Gələcəyin məşhur futbolçu-aktyoru ailəsində baş verən ziddiyyətlər üzündən əsəbi, hamıya qarşı qəzəbli olmuşdu. Vinni 13 yaşına təzəcə qədəm qoyanda valideynləri onun gözləri qarşısında ağlasığmaz dava-dalaş törədərək ayrılmışdılar. Bu ayrılıqdan sonra yeniyetmə idmançı tikinti ustası olan atası ilə birlikdə yaşamağa məcbur olmuşdu.

Vinsent çox nadinc, ipə-sapa yatmayan uşaq idi. Atasına məktəbdən tez-tez şikayət gəlirdi. Hər dəfə məlum olurdu ki, Vinni ya kimisə döyüb, ya da ictimai yerdə xuliqanlıq eləyib. Oğlunun hərəkətlərindən bezən ata bir gün onu möhkəm tənbeh edir. Vinni də öz növbəsində atasına kobud cavab qaytarır, əvəzində möhkəm bir şillə "yeyir". Bu hadisədən sonra o, yaşadığı evi birdəfəlik tərk edir. Təkbaşına ev kirayələyən Vinni inşaat işlərində fəhlə kimi çalışmağa başlayır.

Futbol və küçə davaları onun həyatının ayrılmaz hissəsinə çevrilmişdi. Vinni ömrünün həmin dönəmlərini belə xatırlayır: "Valideynlərim ayrıldıqdan sonra 3 il topa toxunmadım. Üsyan elədim, evdən qaçdım. Məni depressiyadan yenə futbol xilas etdi. Həyatımı, karyeramı futbol sayəsində düzgün qura bildim. Həm də öyrəndim ki, nə qədər çalışsan, həyatda o qədər şans qazanacaqsan..."

Vinni peşəkar futbolçu karyerasına 19 yaşında, 1984-cü ildə "Uoldston FC" adlı tanınmış komandada çalışmaqla başlayır. O, bu klubda oynaya-oynaya tikintidə suvaqçı işləməyinə davam eləyir. Vinsentin futboldakı uğurları müxtəlif məşqçilərin diqqətini cəlb edir.

"Uembledon FC"-nin məşqçisi gənc Vinniyə 10 min pound məbləğində maaş təklif edərək, onu öz komandasına dəvət eləyir. Bu pul gənc futbolçu üçün fantastik qonorar olduğuna görə Vinni təklifi böyük məmnuniyyətlə qəbul edir. Komandada oynadığı zaman bir çox uğurlar qazanan Vinni kluba qoşulduğu vaxtdan iki il sonra komandasına İngiltərə Federasiya Kubokunu qazandırır.

Klublar Vinni ilə əməkdaşlığa can atır, onu öz komandasında görmək istəyənlərin sayı artır. Lakin onlar bir riski də həmişə gözə alırlar: Vinninin davakarlığını!

Əla müdafiə divarı quran bu vazkeçilməz oyunçu həmişə təhlükəli oynayır. O ya rəqib komandadan kimisə şil-küt eləyir, ya da kobud qayda pozuntusu ilə təmsil etdiyi komandaya qırmızı vərəqə qazandırır.

Vinni nəinki rəqib komanda üzvləri ilə kobud davranır, hətta yaxşı oyun nümayiş etdirməyəcəkləri təqdirdə öz komanda yoldaşlarının da "payını" verəcəyini deyirdi. Söyləyirlər ki, qələbə qazandıqları matçların birində Vinni yaxşı oynamayan iki komanda yoldaşını paltardəyişmə otağındakı mıxdan asılı saxlamaqla cəzalandırıbmış.

Bütün bu amansızlıqlarına, sərt davranışlarına görə onun oynadığı klubu uğurlarla yanaşı cərimələr, cəzalar da gözləyirdi. "Leeds United", "Sheffield United", "Çelsi" kimi komandalarda fəaliyyət göstərən Vinni Cons 1992-ci ildə yenidən "Uembledon FC"-ya qayıdır.

"Leeds United"ə dəvət olunan Vinsent komandaya gələn kimi klubun ən yaxşı oyunçularından olan Bobbi Devissonla problem yaşayır. Mübahisələrin birində Bobbinin boğazına odlu silah dirəyərək onu təkbətək görüşə çağırır, lakin Devisson dueldən boyun qaçırır. Bir dəfə matçın üçüncü saniyəsində Paul Qasquin adlı futbolçunun xayasını əli ilə vəhşicəsinə sıxdığına görə dərhal meydandan qovulmuşdu.

Vinsent Cons "Leeds United"ə çempionluq qazandırsa da, qələbədən sonra klub onu əməkdaşlıqdan azad edir.

Futbol karyerasını "Queens Park Rangers" klubunda sona çatdıran Vinni Premyer Liqa tarixinin ən çox qırmızı vərəqə alan futbolçusu kimi tarixə düşür. İngiltərə futbolunun nüfuzlu simalarından olan Vinsent Cons özünün ikinci və ən parlaq karyerasına - aktyorluğa başlayır.

Dediyimiz kimi, Vinninin kobud davranışları, hələ futbol oynadığı vaxtlardakı amansız üz cizgiləri Hollivud rejissorlarının diqqətini çəkmişdi.

Tamaşaçıların futbol meydançasından tanıdıqları xuliqan Vinni Cons ilk dəfə məşhur rejissor Qay Riçenin "Kart, pul  və qoşalülə" adlı filmi ilə ekranlara çıxır. Keçmiş futbolçu qeyri-adi aktyor oyunuyla hamını heyrətləndiririr. Bu filmdən sonra ona müxtəlif rollarda oynamaq üçün təkliflər gəlir. Beləliklə, bizim bu dələduz, davakar futbolçu qəhrəmanımız bir-birinin ardınca tanınmış rejissorlardan dəvətlər alır və ona dünya şöhrəti gətirən filmlərə çəkilir.

"Böyük quş" filmindəki roluna görə Vinsent Consa beynəlxalq dərəcəli "ən yaxşı aktyor" mükafatı verilir.

"60 saniyə ərzində qaçırmaq", "Parol: Qılınc balıq",  ""Qızıl Qartal"da bir gün", "Sümüksındıran", "Dəhşət qatarı" kimi filmlərdə əsas rollarına görə aktyor görünməmiş məbləğdə pul qazanır. Çəkildiyi filmlərdə Vinni Consun tərəf-müqabilləri qismində Anjelina Coli, Bred Pitt, Nikolas Keydç, Ceyson Stethem, Robert de Niro, Con Travolta, Hu Cekman, Helli Berri kimi dünya ulduzları çıxış edirlər.

Vinni Consun qeyri-adi döyüş bacarıqları onu savaş filmlərində əvəzedilməz oyunçuya çevirir. Lakin Vinninin sənətkar kimi əsas gücü onun fiziki qəhrəmanlığında yox, real psixoloji obrazlar yaratmaq ustalığındadır. Satış tirajına görə dünyada rekord vuran "Dəhşət qatarı" filmində o, lal hannibal-manyak rolunu oynayır. Əsas personajlardan olsa da, film boyu bircə kəlmə belə danışmayan Consun yaratdığı tükürpədici psixoloji aura tamaşaçını doğrudan da vahiməyə salır.

Məşhur kinoşünas Piter Bredşou aktyor Cons haqda belə deyib: "Filmin daha vahiməli və dəhşətli olması üçün onun bir qəddar baxışla kameraya nəzər salması yetərlidir. "Dəhşət qatarı"ında o məhz bunu edib..."

Ümumiyyətlə, Vinni Cons mənfi rolların öhdəsindən böyük ustalıqla gəlir. Hollivud rejissorları ən qəddar manyak obrazlarını canlandırmağı Vinniyə həvalə edirlər.

Dəri xərçəngi xəstəliyindən əziyyət çəkən 59 yaşlı "dəli  aktyor" hazırda İngiltərədə yaşayır.



*Murad Köhnəqala*

# Qadının kəşfi

## Bernard Şounun "Piqmalion" pyesi haqqında

**əvvəli ötən sayımızda**

Eliza gecəylə evdən qaçır. Professorla polkovnik səhər bundan xəbər tutanda başlarını itirirlər, hətta qızın axtarışı üçün polisə müraciət eləyirlər. Hiqqins evində bədənini itirmiş ruh kimi dolaşır, heç nəyin yerini, yöndəmini tapa bilmir, ev onun nəzərində xaraba qalıb, hər şey gözündə alt-üst olub.

Belə bir dar məqamda qulluqçu Elizanın atasının gəldiyini xəbər verir. Dulitl atanın görkəmi heyrətamiz dərəcədə dəyişib, kişi əvvəl gördüyümüz kirli-pasaqlı cır-cındırda yox, təmiz, səliqəli burjua qiyafəsindədir. Söhbət əsnasında bəlli olur ki, Hiqqinsin bir zarafatı sayəsində bütün dünya üzrə mənəvi islahatlar aparmaq arzusunda olan varlı amerikalı filantropdan Dulitla miras qalıb.

Ancaq o, indiki halından elə də məmnun deyil, əvvəlki azadlığını itirdiyindən, məsuliyyətinin artdığından, hamının ondan pul-para umduğundan gileylənir. İndi o, illərlə kəbinsiz yaşadığı qadınla nikah bağlamağa, hörmətli, ləyaqətli bir burjua kimi yaşamağa məcburdur. Bundan sonra cənab Dulitl elitar varlığa çevrilmiş qızının da qayğısına qala bilər. Ancaq professor Hiqqins yoxdan yaratdığı bir məxluqu, zibillikdən uçurduğu mələyi atasına qaytarmaq fikrini yaxınına belə buraxmır.

***

Məlum olur ki, miss Eliza missis Hiqqinsin evində gizlənib. Onun professordan anasına sığınması rəmzi mahiyyət daşıyır, uşağın onu döyən anasından bir ayrısına yox, məhz elə ananın özünə sığınmasına, anasına qısılmasına bənzəyir. Belə görünür, onlar arasında gələcək qohumluğun, qayınana-gəlin, ana-bala münasibətinin təməli döşənməkdədir. Qız şərt qoyur ki, Hiqqins ondan üzr diləsə, qayıtmağa razıdır. Fəqət kobud, nəzakətsiz, hərzə-hədyan danışmaqdan zövq alan professor belə bir şeyi ağlına da gətirmir. Onda Eliza üzə çıxıb Pikerinqə minnətdarlığını bildirir: fonetika tanrısının məbədinə ilk gəlişində polkovnik ona "miss Dulitl" deyə müraciət eləyəndən bəri o özünü adam saymağa, özünə hörmət qoymağa başlayıb. Professoru isə üsyankar mələk hədələyir: əgər onu bir də incitsə, Eliza Hiqqinsin rəqibi olan başqa bir məşhur professorun yanında işə düzələcək, üstəlik, onun bütün sirlərini düşməninə satacaq.

Elizaya qəzəblənib təhqiramiz sözlərlə qızı alçaldan Hiqqins yaratdığı məxluqun necə mükəmməl olduğunu, qiyamçı mələyin necə təmiz bir əxlaqla süsləndiyini gizli bir ləzzətlə müşahidə eləyir. Anlayır ki, daha onsuz yaşamağı mümkün deyil, Elizaya alışdığını boynuna alır. Şübhəsiz, Eliza da yaradanından ayrılmağa meyilli deyil, o da öz müəllifinə simpatiyasını gizlətmir. Əqidəli subaya bundan sonra nə qalır - xırdaca bir təklifdə bulunmaq, üzüyünü qızın barmağına qaytarmaq, bəndəsinə sona qədər tanrılıq eləmək, mələyini iblisə döndərib cəhənnəmə sürməmək... Tək qalanda Eliza buxarının külü içində eşələnib Hiqqinsin oda atdığı üzüyü axtarır.

Elizanın davası nədir - professor ona hissiz-duyğusuz kukla kimi, təcrübə siçanı kimi baxmasın, onu xaos burulğanına atmasın, öyrətdiyi dəyərlərdən yararlanmasına şərait yaratsın. Hiqqins isə özünün şah əsərini bütün başqa tələbələritək cansız, ruhsuz kötük sayır, qızı qaldırıb öz mərtəbəsinə çatdırsa da, yenə ona üstdən-aşağı baxır. Xəbəri yoxdur ki, kötük pöhrə verib, yarpaqlayıb, çiçək açıb, bar gətirib. Artıq onunla canlı varlıq kimi davranmaq lazımdır. Sivilizasiya geriyə yol tanımır.

***

Özünə ustad saydığı Henrik İbsen kimi Bernard Şou da qadın emansipasiyası məsələsinə çox həssas yanaşıb. Onun bu əsəri əsasən demokratizm, maarifçilik prizmasından gözdən keçirilir; yəni aşağı növ, yuxarı növ insan yoxdur, əgər bərabər şərait yaradılsa, maarifin qüdrətindən hər kəs bəhrələnə bilər. Məsələn, həyatın dibindən çıxmış Elizada olan qabiliyyətin mində biri kübar dibçəkdə bəslənmiş Freddidə yoxdur, əsər boyu biz onun ancaq səfeh hərəkətlərinə şahid oluruq.

İstedad, bilik, qanacaq genetik ötürülmür, münbit mənəvi-əxlaqi şəraitin, düzgün intellektual tərbiyənin hesabına cilalanıb üzə çıxır. Bernard Şou siyasi baxışlarına görə solçu, sosialist olduğundan belə yozum onun əsərinin ruhuna yad deyil. Üstəlik, müəllif özü də qəhrəmanının dilindən açıq mətnlə deyir ki, onun metodu siniflər, silklər arasındakı uçurumu doldura bilər.

"Piqmalion" pyesini ingilis dilinin qüdrətini vəsf eləyən himn sayanlar da az deyil. Belə yanaşsaq, bu əsəri təkcə ingilis dilinin yox, ümumən dilin, fonetikanın, bütövlükdə linqvistika elminin, bir az da geniş götürsək, sənətin, mədəniyyətin, maarifin qüdrətini tərənnüm eləyən mədhiyyə də saya bilərik. İyirminci əsrin Vitgenşteyn, Haydegger kimi böyük filosoflarının dili varlığın cövhəri, evi saymaları da, görünür, yüz il bundan əvvəlki dövrün ruhuna uyğun yanaşmalardır. Dillə düzgün davranması, dildən doğru yararlanması Elizanı palçıqda sürünən soxulcandan göylərdə süzən göyərçinə çevirir.

***

Demokratizm, sosial bərabərlik, maarifçilik, feminizm, qadın emansipasiyası - bütün bunlar öz yerində, belə məsələlər artıq əksini də, həllini də bədii əsərlərdə, səhnələrdə yox, qeyri-hökumət təşkilatlarının layihələrində, dövlət qanunlarında, hökumət sərəncamlarında tapır. Bəs onda "Piqmalion" kimi sənət incilərini bu gün diri, aktual saxlayan nədir?

Əsərdən aydın görünür ki, qadın-mələk başlanğıcını, arxetipini kəşf eləyən, ona can verən, onu ucaldan kişi başlanğıcı, tanrı arxetipidir. Tanrı Piqmalion kimi (daha doğrusu, tərsinə) əvvəlcə öz mələyinin obrazını yaradır, sonra onu sevib vücuda gətirir, sonra da həyatını ona bağlayır. Yer üzündə qadınla kişinin ən ideal birgəliyi bu formula əsaslanır.

Doğrudur, qadın bəzən öz yaradanına, ona azadlıq verənə, onu öz mərtəbəsinə qaldırana asi düşüb kişiliyə qarşı qiyam qaldırır, kişini üstələməyə, onu özündən aşağıda görməyə-göstərməyə çalışır (ayrı-ayrı həyat faktlarından yox, ümumən fəlsəfi yanaşmadan danışıram). Bu isə hər şeydən əvvəl qadınlığın təbiətinə ziddir. Ayrı-ayrı qadınların ayrı-ayrı kişilərdən üstünlüyünü nəzərdə tutmuram, amma ümumən qadın ümumən kişidən heç vaxt üstün ola bilməz - bu, bizə əbədi, dəyişməz ideyalar, arxetiplər aləmindən ötürülən əbədi, dəyişməz həqiqətdir. Bu həqiqətə qarşı qiyama qalxmaq varlığın təməlinə əl uzatmaq, mahiyyətinə üsyan eləməkdir. Bu proses heç zaman yaxşı sonluğa vara bilməz. Kişisi alçaldılan, kişiliyi qıtalan dünya özü də ucalmaz, alçalar.

Professor Hiqqins Elizaya sevimli kuklası kimi, üzərində təcrübə apardığı dovşan kimi baxanda sadəcə alim idi. Yaratdığını sevməyə, onu quru kötük yox, canlı adam saymağa başlayanda isə özü də adam olur. Eliza da özünü təlim keçən it kimi yox, kəşf olunmuş xəzinə kimi hiss eləyəndə Şekspirin, Miltonun danışdığı dildə eybəcər səslər çıxaran küçə alverçisindən dönüb xanım olur, mələk olur. Bu proses qarşılıqlıdır - kişi qadını mələyə, qadın da kişini başının ağasına, tanrısına çevirir.

***

Əsərə yazdığı son sözdə müəllif Elizanın Freddiyə ərə gedə biləcəyinə işarə vurur. Bernard Şou bizi inandırmağa çalışır ki, Eliza Dulitl başmaqlarını "otardığı" adama yox, onun özünün başmaqlarını öpüb gözünün üstünə qoymağa müntəzir namizədə üstünlük verəcək (doğrudur, bu məqamda xırdaca bir şərt də qoyur: əgər fizioloji baxımdan oğlandan çiyrinməyə bir səbəbi olmasa...). Ancaq bu proqnoza inanmaq çox çətindir. Birbaşa desək, artıq vücuda gəlmiş, cansız heykəl olmaqdan çıxmış Qalateya Freddinin tayı deyil. Onun sevib-sevilməyə təşnə qəlbini Piqmaliondan başqası doyura bilməz. Onlar ya evlənəcəklər, ya da bir yerdə (polkovnik Pikerinqi də nəzərə alsaq, üçlükdə) dostcasına ömür sürəcəklər. Onları bağlayan tellər artıq polad zəncirə dönüb, bu zənciri qırmaq mümkün deyil. Bir sözlə, müəllifin əsərinə kənar şəxs kimi, şərhçi, tənqidçi kimi müdaxiləsi müəmmanı çözmək yox, iz azdırmq məqsədi güdür.

Üstəlik də professor Hiqqins zəka, ağıl, müdriklik, Eliza isə fəhm, istedad, ilham rəmzidir. İkisinin birləşməsi istər elm, istərsə də sənət sahəsində möcüzələr yaradır. Fəhmlə zəka, ağılla istedad, idrakla ilham bir-birindən ayrı düşəndə heç biri heç bir dəyər qazanmır. Elizanın intuisiyası Hiqqinsin intellektinin süzgəcindən keçəndən sonra ortaya parlaq nəticə çıxır.

Hiqqins nə qədər qəliz, tərs, Eliza nə qədər dikbaş, çılğın olsa da, onların kəbini göydə kəsilib. Qadın rahatlığı üçün özündən zəif kişini seçə bilər, amma onu sevə bilməz. Sevən qadın - sevdiyinə təslim olan qadındır. Qadının sevə biləcəyi kişi özündən bir baş uca olmalıdır. Professor, əlbəttə, çox da yaxşı insan deyil, kobuddur, mərifətsizdir, despotdur... bununla belə dahidir. Dahilər arasında salamat adam çətin tapılır. Şəms Təbrizi necə demişdi: "Atam yaxşı adam idi, ancaq aşiq deyildi. Yaxşı adam başqa, aşiq başqa".

Müəllifin müdaxiləsinə, oxucunu yönəltməyə, daha doğrusu, azdırmağa çalışmasına baxmayaraq "Piqmalion" pyesinin sonluğuyla bağlı yozumlar, proqnozlar çoxdur. Əsərin finalı faktiki yoxdur, süjet, kompozisiya çevrəsi qapanmayıb, açıq qalıb. Müəllif bayağı sonluqdan, yəni Piqmalionla Qalateyanı evləndirməkdən qaçıb, alternativ varianta isə yəqin özü də axıracan inanmayıb. Vəziyyətdən əsərə əlavə kimi son söz yazmaqla çıxıb. Bu baxımdan pyes yozuma həmişə açıqdır, hər oxucu, hər tamaşaçı finaldakı boşluğu özü bildiyi kimi doldura bilər.

Bir yozum da biz verməyə çalışdıq. Hərçənd bu məsələyə nöqtə qoymaq, pyesdəki qəhrəmanların ən yaxın gələcəyi, mümkün aqibəti barədə qəti, yekdil fikir söyləmək hələ çox tezdir. Yazıldığı zamandan yüz neçə il ötsə də, əsər hələ bitməyib, personajların finişə çatmamış macəralı yürüşü, Şounun təkan verdiyi ictimai-fəlsəfi proses bu gün də davam eləyir. Bütün bunların axırı nəylə qurtaracaq - yaşayarıq, görərik...



*Fəxri Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Fədakar alim...

## Vəli Xuluflunun anadan olmasından 130 il ötür

*Yeganə BAYRAMOVA*

Neçə-neçə dəyərli insanın ömrünə balta çalmış, həyatını zülmə döndərmiş 1937-ci ilin qara tufanının qurbanları Azərbaycan üçün sözün həqiqi mənasında itkidir. 1937-ci il qurbanlarının ömür yolunu səhifə-səhifə vərəqlədikcə, tarixin daş yaddaşları arasından gələn fəryad səsləri insanı dəhşətə gətirir. Həmin fəryad edənlərdən biri də folklorçu alim, tarixçi, ölkədə yeni əlifbanın fəal tərəfdarı, Yeni Əlifba Komitəsinin üzvlərindən biri Vəli Xulufludur.

Əgər Stalin rejimi yüksək mədəniyyətə və intellektə sahib günahsız bu insanı məhv etməsəydi, Xuluflunun ömrünə hələ neçə-neçə dəyərli və mənalı uğurlu səhifələr yazılacaq, kitablarına yeni kitablar əlavə olunacaqdı. O, hələ nə qədər xalq incisi toplayacaq, onlarla tədqiqat əsərinin altında “Vəli Xuluflu” imzası qoyulacaqdı. Amma Xuluflunun elə özünün topladığı həmin folklorun içərisində belə bir məsəl vardı: “Sən saydığını say, gör fələk nə sayır...”.

Sabah bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan alimin anadan olduğu gündür. O, 1894-cü il may ayının 26-da Şəmkir rayonunun Xuluf kəndində (bu qədim kənd Şəmkir SES dəryaçasının altında qalıb) anadan olub. İbtidai təhsilini mollaxanada alan Vəli sonra “Mədrəseyi-ruhaniyyə” məktəbində oxuyub və 1913-cü ildən həmin məktəbdə müəllim kimi fəaliyyətə başlayıb. 1917-ci ildə Gəncədə Müəllimlər İnstitutunu bitirib, müəllimlik edib.

O, 1922-ci ildə Bakıya gəlir, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olur. Universitetin son kurslarında oxuduğu vaxtlarda da tələbə-tədqiqatçı kimi Azərbaycan folklor örnəklərinin toplanmasına və nəşrinə çalışırdı. Şəmkir, Tovuz, Gədəbəy, Qazax rayonlarına gedir, axtarışlar aparır, materiallar toplayıb 1926-cı ildə “Azərbaycan xalq ədəbiyyatından materiallar” seriyasından “El aşıqları”kitabını çap etdirir. Alim 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna elmi katib vəzifəsinə irəli çəkilir. Az sonra institutun bazasında yaradılmış Dil-Ədəbiyyat və İncəsənət İnstitutuna direktor təyin edilir.

V.Xuluflu “Folklor xalqın qan yaddaşıdır. Onu toplamaq, gələcək nəsillərə çatdırmaq, keçmişlə gələcək arasında varisliyi qoruyub saxlamaq lazımdır”-deyirdi. O, məsul vəzifələrdə işləyərkən gənc nəslin milli ruhda tərbiyə olunması, milli varlığımızın qorunub-saxlanılması üçün çox iş görüb. 1920-1930-cu illərdə latın qrafikalı əlifbaya keçidin tərəfdarı və fəal təbliğatçısı olub. Hətta bu barədə 1925-ci ildə “Yeni türk əlifbası ilə yazı qaydaları” adlı kitab da nəşr etdirib.

Təəssüf ki, 1937-ci ilin bolşevik rejimi onlarla, yüzlərlə Azərbaycan ziyalısı kimi Vəli Xuluflunun da həyatına vaxtsız son qoyub. NKVD müstəntiqlərinin o zaman ən böyük “maddi sübut”larından biri onun topladığı “Tapmacalar”da: “Hamını bəzər, özü lüt gəzər” deyimi olub. Bu tapmacada sətiraltı məna axtaran müstəntiq deyirdi: “Siz bununla düşmənin dəyirmanına su tökürsünüz, demək istəyirsiniz ki, şura hökuməti hamını bəzəyir, amma millət acından ölür...”.

Azərbaycanlı alimin türk xalqlarının yaxınlaşmasına xidmət edən fəaliyyəti Kremlin də diqqətindən yayınmırdı. Türk xalqlarının ortaq latın əlifbasına keçməsini qısqanclıqla qarşılayan Moskva bu ideyaya, bu təşəbbüsə çox mənfi münasibət bəsləyirdi. Rejim vətənpərvər alimi hay-küysüz həbs etmək üçün bəhanə axtarırdı. Amma ortada tutarlı fakt yox idi. Lakin Stalin milyonlarla insanın ölümünə səbəb olan repressiya maşınını işə salanda Vəli Xuluflu da əksinqilabçı və millətçi təşkilatın üzvü kimi Dövlət Təhlükəsizliyi İdarəsinin 4-cü şöbəsi tərəfindən 1937-ci il yanvarın 28-də gecə həbs edilir. Həmin il oktyabrın 13-də güllələnən Vəli Xuluflunun işinə 1956-cı il noyabın 17-də SSRİ Ali Məhkəməsi hərbi kollegiyası yenidən baxıb, fəaliyyətində cinayət tərkibi olmadığına görə ona bəraət verib.



Alimin yaşadığı dövr tarixin ən ağır zamanlarından biri olmasına baxmayaraq, həmişə təhsilini davam etdirərək elmi biliklər qazanmaqdan əl çəkməmişdi. O, qazandığı bilikləri kitablara köçürərək bu gün bizlərə həmin əsərləri ən əziz xatirə kimi miras qoyub. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra Vəli Xuluflu irsinə daha tez-tez müraciət edilir, xatirəsi əziz tutulur. Bakının ən yaraşıqlı küçələrindən birinə Vəli Xuluflunun adı verilib. Gəncədə adına küçə və park var, anadan olduğu Şəmkir rayonunda orta məktəb, Mədəniyyət evi və bir küçə Vəli Xuluflunun adını daşıyır.

*Yeganə BAYRAMOVA*

# Ali təhsilli ilk memarımız...

## Zivər bəy Əhmədbəyovun doğum günüdür

Xalqımız incəsənətin bir çox sahələrində olduğu kimi, memarlıqda da görkəmli sənətkarlar yetişdirib. Onlar yaratdıqları bənzərsiz memarlıq abidələri ilə mədəni irs xəzinəmizə əvəzsiz töhfələr bəxş ediblər. Bu gün Bakını bəzəyən, Avropa və Şərq memarlıq ənənələrini özündə birləşdirən, dərin məzmunlu arxitekturası, möhtəşəmliyi ilə gözoxşayan bir çox tikililər haqqında danışacağımız memarın adı ilə bağlıdır. Söhbət Azərbaycanın ilk ali təhsilli memarı, görkəmli maarifçi, yaradıcılıq izləri nəinki Bakıda, həmçinin Şamaxıda, Vladiqafqazda naxışlanıb, əbədi sənət karvanına qoşulan Zivər bəy Əhmədbəyovdan gedir.

Bu gün görkəmli memarın anadan olmasından 151 il ötür. O, 1873-cü il mayın 25-də Şamaxı bəylərindən Gəray bəyin ailəsində dünyaya gəlib. Şamaxının tanınmış nəsillərindən olan Əhmədbəyovlar elmə, ədəbiyyata marağı ilə tanınırdı. Ailənin sonuncu övladının elmə meylli, istedadlı memar kimi yetişməsi də təsadüfi deyildi. Anası Töhfə xanımın təhsilli, musiqi, ədəbiyyat və poeziya həvəskarı olması da onun gələcək karyerasının formalaşmasına təsirsiz ötüşmədi. Beləliklə, musiqi, rəssamlıq, eyni zamanda fortepiano ifaçılığına həvəs göstərən balaca Zivər bəy artıq məktəb illərində qərar verir: memar olmaq, gözəl sənət nümunələri yaratmaq, qədim Şirvan memarlıq məktəbini, xalqımızın zəngin memarlıq ənənələrini yaşatmaq...



### Mühüm layihələr ona etibar edilirdi...

Görkəmli memar orta təhsilini Şamaxıda alıb. 1902-ci ildə Peterburq İnşaat Mühəndisləri İnstitutunu bitirən Zivər bəy memar diplomu ilə vətənə qayıdır. Gənc kadr ilk peşəkar fəaliyyətinə doğulub boya-başa çatdığı şəhərdən başlayır. 1902-ci ilin 31 yanvarında baş verən zəlzələ Şamaxını xarabazara çevirmişdi. Buna görə də o, bir müddət Şamaxıda qalıb şəhərin abadlaşması ilə məşğul olur. Məsələn, tamamilə dağılmış Cümə məscidi ilə yanaşı, digər tikililəri də yenidən bərpa edir. Nəticədə Şamaxı özünün normal şəhər həyatına qayıdır.

1907-ci ildə Bakıda başlanılan abadlıq işlərinə nəzarətçi təyin edilir. Həmin dövrdə Bakı sənaye şəhəri kimi inkişaf edirdi. Şəhərin memarlıq işləri xüsusi naxışları və ornamentləri ilə fərqlənirdi. Buradakı fərqlilik Avropa üslubu idi. Bu səbəbdən də paytaxtın qubernatoru və ali təbəqəsi şəxsi mülklərinin layihəsini məhz ona etibar edirdi.

### Şərq-Qərb ənənələrinin sintezi...

Zivər bəy Əhmədbəyov öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirirdi. Bakıda Oftalmologiya İnstitutunun binası və onun layihəsi ilə tikilən bir sıra yaşayış binaları bu gün də göz oxşayır.

1917-ci ilə qədər Bakı Quberniya İdarəsində, sonra isə Bakı şəhər idarəsində memar işləyən Zivər bəy həmçinin ictimai fəaliyyətlə də məşğul olurdu. Onun səyləri nəticəsində 1917-ci ildə “İslam mədəniyyət abidələrini qoruyan” cəmiyyət yaranır. O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı şəhərinin baş memarı vəzifəsində çalışıb. Həmin vəzifəni sovet hakimiyyəti illərində də - ömrünün sonuna qədər icra edib.

### Möhtəşəm sənət yadigarları...

Bu gün Bakıya yaraşıq verən tikililərin sırasında Təzəpir məscidi xüsusi memarlıq üslubu ilə fərqlənir. Məscid məşhur Aşurbəyovlar nəslinin nümayəndəsi Nabat xanımın vəsaiti hesabına tikilib. O zaman Bakı milyonçularının Avropanın ən məşhur memarlarını Bakıya dəvət edib özləri üçün yaşayış binaları, bağ evləri tikdirdikləri halda, Nabat xanım məscidi məhz azərbaycanlı memara tikdirmək niyyətində idi. Bu memar isə gənc Zivərbəy idi. Amma müdrik qadın memarı yanına çağırıb niyyətini bildirdikdən sonra onu öz vəsaiti hesabına Şərq ölkələrinə göndərir ki, məşhur məscidlərin memarlıq üslubunu öyrənsin. Doğrudur, buna qədər artıq Zivər bəy Şamaxıda Cümə və İmam, Əmircanda Murtuza Muxtarov məscidlərinin memarı kimi şöhrət tapmışdı. Amma buna baxmayaraq, Nabat xanım Bakıda Şərqin ən möhtəşəm məscidlərinə bənzər məscid görmək istəyirdi. Zivər bəyi Məkkə və Mədinəyə, İstanbula Şərqin memarlıq inciləri sayılan məscidlərin memarlıq üslubu ilə tanış olmağa göndərəndə ona belə demişdi: “Oğlum, qoy o müqəddəs ocaqların ruhu sənə ilham versin. Bax, öyrən, ən yaxşısını seç! Xalqımızın adına layiq elə məscid tik ki, adı dillər əzbəri olsun”.

Beləliklə, Zivərbəy Şərqin zəngin məscid memarlığını mənimsəyərək geri dönür. İndi Nabat xanım Aşurbəyovanın arzuladığı məscidi tikmək olardı. Zivərbəyin layihəsi əsasında ən bacarıqlı sənətkarların iştirakı ilə Bakıda unikal memarlıq abidəsi - Təzəpir məscidi meydana gəlir. Məscidin 1905-ci ildən başlanan tikintisi 1914-cü ilə kimi davam etdi. Bu gün də Bakının memarlıq incilərindən Təzəpir əsrarəngizliyi ilə göz oxşayır.

Təkcə Bakıda deyil, Rusiyanın Vladiqafqaz şəhərində bir sıra yaşayış, məişət binaları da məhz Zivər bəy Əhmədbəyovun layihəsi əsasında inşa edilib.

Bizlərə gözəl sənət inciləri bəxş edən memar 1925-ci ildə Bakıda vəfat edib. 2011-ci ilin mayında Bakıda metronun “Nizami” stansiyasının qarşısında Prezident İlham Əliyevin iştirakı ilə Zivər bəy Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olub. İstedadlı memarın heykəlinin məhz burada ucaldılması da təsadüfi deyil. Çünki metro stansiyasının sol tərəfində tikilən binanın müəllifi Z.Əhmədbəyovdur. Metronun qarşısından keçən küçə də Z.Əhmədbəyovun adını daşıyır. Bütün bunlar dövlətimizin və xalqımızın böyük memarın xatirəsinə dərin hörmətinin göstəricisidir.



## Azərbaycanın qadın güləşçisi Avropa çempionu olub

Azərbaycanın qadın güləşçisi Jalə Əliyeva Bakıda keçirilən U-23 Avropa çempionatında qızıl medal qazanıb. 57 kiloqram çəki dərəcəsində çıxış edən idmançı finalda türkiyəli Elvira Kamaloğluna 5:3 hesabı ilə qalib gəlib. Bu gün, həmçinin digər qadın güləşçimiz Mərziyyə Sadıqova (72 kiloqram) bürünc medal görüşünə çıxacaq. Qeyd edək ki, Avropa çempionatında Azərbaycan güləşçiləri ümumilikdə 10 medal qazanıblar. Ziya Babaşov (63 kiloqram), Xasay Həsənli (77 kiloqram) və Qurban Qurbanov (82 kiloqram) qitə çempionu olublar. Nihad Quluzadə (60 kiloqram) gümüş, Rəşad Məmmədov (55 kiloqram), Ruslan Nurullayev (72 kiloqram), Laçın Vəliyev (87 kiloqram), Murad Əhmədiyev (97 kiloqram), Elnurə Məmmədova (53 kiloqram) və Ruzanna Məmmədova (59 kiloqram) isə bürünc medala yiyələniblər.




## Azərbaycan para-atleti dünya çempionatında finala yüksəlib




Azərbaycan para-atleti Lamiyə Vəliyeva Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında finala yüksəlib. Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, 22 yaşlı idmançı T13 kateqoriyasında 400 metr məsafəyə qaçış üzrə finişə 56.57 saniyə çataraq həlledici mərhələdə iştirak hüququ qazanıb. O, sabah qızıl medal uğrunda mübarizə aparacaq. Qeyd edək ki, Lamiyə Vəliyeva bu yarışda daha əvvəl 100 metr məsafəyə qaçışda dünya çempionu olub.

## Sərbəst güləşçilərimiz Gürcüstanda beynəlxalq turnirə qatılacaqlar




Azərbaycanın 20 yaşadək sərbəst güləşçiləri Gürcüstanın Qori şəhərində keçiriləcək “Şxireli Kuboku”nda iştirak edəcəklər. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, mayın 25-də start götürəcək turnirdə Vasif Bağırov (57 kiloqram), Camal Abbasov (61 kiloqram), Musa Verdiyev (65 kiloqram), Ramik Heybətov (70 kiloqram), Əhməd Əhmədli (74 kiloqram), Emin Qocayev (79 kiloqram) və Sadiq Mustafazadə (86 kiloqram) çıxış edəcəklər.

İki gün davam edəcək ənənəvi yarışda beynəlxalq dərəcəli hakimlər Xəzər Allahverdiyevlə Eldar Bayramov ədaləti qoruyacaq.

## “Beşiktaş” Türkiyə Kubokunun sahibi olub



Futbol üzrə Türkiyə Kubokunun sahibi bəlli olub. “Atatürk Olimpiya Stadionu”nda baş tutan final matçında “Beşiktaş” və “Trabzonspor” komandaları üz-üzə gəlib. Görüşdə hesabı 13-cü dəqiqədə qaradənizlilərin heyətində Poul Onuaçu açıb. Fasilə ərəfəsində Raşid Qezzal “status-kvo”nu bərpa edib. 54-cü dəqiqədə Salih Uçan “ağ-qaralar”ı hesabda önə çıxarıb. Final fitinə 1 dəqiqə qalmış Nikolas Pepe növbəti dəfə hesaba tarazlıq gətirsə də, 90+4-cü dəqiqədə “Beşiktaş”ın heyətində adını tabloya yazdıran Əl Müsrati komandasına qələbə qazandırıb. Oyun İstanbul klubunun 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Bu nəticə ilə “Beşiktaş” tarixində 11-ci dəfə ölkə kubokunun sahibi olub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5675**
**Sifariş: 1150**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova